

100

1918
2018

ƏDLİYYƏ

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 10 - oktyabr 2018



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**



**Qaynar xətt**
**539-76-75**

# Mündəricat



## RƏSMİ MƏLUMAT

Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılışı olub ....4
Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib ....9
VI Bakı Beynəlxalq Humanitar Forumu ....12
Prezident İlham Əliyev İmişli Rayon Məhkəməsinin yeni binasında yaradılan şəraitlə tanış olub ....17



## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyəti ilə tanışlıq ....18
Ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir ....20
Məhkəmə-Hüquq Şurasının iclaslarında ....21
Ölkəmiz beynəlxalq antikorrupsiya mübarizəsində fəal iştirak edir ....23
Xorvatiyanın Şibenik şəhərində keçirilmiş konfrans çərçivəsində ədliyyə nazirlərinin "Korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi" adlı ayrıca sessiyasında Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun çıxışı ....24
Notariat sahəsində islahatlara beynəlxalq maraq artır ....26
Belarus Vəkillər Kollegiyasının sədri ilə Ədliyyə Nazirliyində görüş ....28
Azərbaycan və Belarus Respublikası arasında hüquqi əməkdaşlıq davam edir ....29
Qlobal Fond nümayəndələri ilə Penitensiar xidmətdə görüş ....30
Probasiya institutunun tətbiqində Azərbaycanın təcrübəsinə maraq göstərilir ....31
Ədliyyə Nazirliyində "açıq qapı" günü ....32
Ədliyyə Akademiyasında iqtisadiyyatın inkişafında hüququn roluna dair beynəlxalq konfrans keçirilib ....33

Respublikanın ali və orta təhsil müəssisələrində açıq dərslər ....34
Avropa Ədliyyə Günü məhkəmələrdə qeyd olunub ....36
Ölkəmizin nümayəndə heyəti Strasburqda regional konfransda iştirak edib ....36
Ədliyyə Akademiyasının məlumatları....37

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 oktyabr tarixli 301 nömrəli Fərmanı ....40
"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1271-VQD nömrəli Qanunu....41
"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1271-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 oktyabr tarixli 303 nömrəli Fərmanı....43
"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanunu ....45
"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 oktyabr tarixli 304 nömrəli Fərmanı ....47
"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1273-VQD nömrəli Qanunu ....48
"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1281-VQD nömrəli Qanunu ....49
"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanunu....50
"Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanı ....51

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x

# Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimində iştirak etmək üçün oktyabrın 19-da Türkiyə Respublikasında işgüzar səfərdə olub.**



Dövlətimizin başçısını Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşılayıb. Prezidentlər terrasdan "Star" neft emalı zavodunun ərazisini seyr edib, idarəetmə ofisi ilə tanış olublar. Zavodda görülən işlər barədə məlumat verilib ki, "Star" zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək və müəssisənin əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR çıxış edir. SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda avqustdan etibarən sınaq məqsədilə xam neft emalına başlanılıb. Zavoda ilk neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton "Azeri Light" markalı neft çatdırılıb. Zavod 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin mayeləşdirilmiş qazın idxal səviyyəsi də 70 faizə enəcək. Zavod ildə 1,6 milyon ton təyyarə yanacağı istehsal etməklə Türkiyənin tələbatını tam ödəyəcək. "Star" neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq. Layihənin həyata keçirilmə müddətində burada 19 min 500 işçi çalışıb. Zavod istehsala başladığı zaman 1100 nəfər yeni iş yeri ilə təmin olunacaq.

"Star" neft emalı zavodunun açılış mərasiminin aparıcısı 6,3 milyard dollar dəyərində olan və bu gün reallaşan 4 nəhəng layihənin əhəmiyyəti haqqında ətraflı məlumat verib. Sonra layihənin əhəmiyyəti haqqında videoçarx nümayiş olunub. SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz layihənin əhəmiyyətindən danışıblar.

Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım iki ölkənin ağıl, iradə və güc birliyi ilə reallaşan layihənin icrası münasibətilə təbriklərini çatdırıb, Türkiyə-Azərbaycan işbirliyinin əbədi olacağını vurğulayıb. Ölkələrimizin dostluğunun və qardaşlığının ən önəmli tərəfini, həmçinin qarşılıqlı yatırımların, dünya səviyyəli enerji və nəqliyyat sahələrində əməkdaşlığın təşkil etdiyini deyən Türkiyə Böyük Millət Məclisinin sədri ulu öndər Heydər Əliyevin, Türkiyənin və Azərbaycanın dövlət başçıları Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin imzaladığı sənədlərlə iki ölkə arasında münasibətlərin daha da möh-



kəmləndiyini qeyd edib, ölkələrimiz arasında 1991-ci ildən etibarən 200-dən çox müqavilə, protokol və digər sənədlər imzalandığını diqqətə çatdırıb. Açılış mərasiminin dəyərli bir ildönümü ilə üst-üstə düşdüyünü, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə təsadüf etdiyini deyən Binəli Yıldırım bu münasibətlə bir daha təbriklərini çatdırıb.

Mərasimdə Azərbaycanın və Türkiyənin imza atdığı mühüm layihələr barədə videoçarx nümayiş etdirilib.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış edib. Dövlətimizin başçısı açılışı həyata keçirilən "Star Rafineri" kimi nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradənin olduğunu vurğulayaraq bu layihənin həyata keçməsinin əsas səbəbinin Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı olduğunu bildirib.

Bu il Türkiyəyə üçüncü






Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

dəfə səfər etdiyini, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın isə Azərbaycana iki dəfə səfər etdiyini söyləyən Prezident İlham Əliyev bunu Türkiyə-Azərbaycan əlaqələrinin ən yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirib. Dövlətimizin başçısı Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanla Bakıda ötən ay keçirilmiş möhtəşəm hərbi paradda iştirakını qeyd edərək bildirib ki, bu mərasim bir daha göstərib ki, bizim birliyimiz sarsılmazdır, əbədidir, yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də bir yerdəyik.

Ötən gün Azərbaycanda müstəqilliyimizin bərpasının 27-ci ildönümünün qeyd olunduğunu söyləyən Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə olduğunu qeyd edib, siyasi, iqtisadi əlaqələrimizin ən yüksək zirvəyə qalxdığını vurğulayıb, Türkiyənin Prezident Ərdoğanın liderliyi sayəsində dünya miqyasında böyük gücə çevrildiyini bildirərək deyib ki, Türkiyənin gücü bizim gücümüzdür. Türkiyə nə qədər güclü olarsa, biz də bir o qədər güclü olacağıq. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycan və Türkiyə dünya miqyasında qardaşlıq, həmrəylik nümunəsi göstərirlər. Mən dünyada ikinci ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olsunlar.

Azərbaycan Prezidenti "Star Rafineri"nin yaradılması üçün ölkəmizin 6,3 milyard dollar yatırım etdiyini, növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcəyini diqqətə çatdıraraq bunu Azərbaycanın xaricə qoyduğu ən böyük yatırım olduğunu vurğulayıb, digər önəmli layihələri birlikdə həyata keçirən Türkiyə və Azərbaycanın güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızdığını qeyd edib.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Azərbaycanı 18 oktyabr - Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edən Türkiyə Prezidenti ölkələrimizin "Star" neft emalı zavodunun açılışı ilə dünyaya örnək olan əlaqələrimizi bir addım da inkişaf etdirdiyini vurğulayıb. Bildirib ki, Azərbaycan ilə əlaqələrimizi təkcə cəsarət, təkcə siyasət miqyasında deyil, güclü iqtisadi




Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

çərçivədə davam etdiririk. Bu müəssisə enerji sahəsində həmrəyliyimizi gücləndirmək üçün uzun müddət gördüyümüz işlərin ən mühüm və konkret örnəklərindən biridir.

"Star" neft emalı zavodu ilə Azərbaycanla qardaşlıq əlaqələrimizin strateji miqyasının daha da gücləndirildiyini deyən Prezident Rəcəb Tayyib Ərdoğan dünyanın ticarət müharibələri və böhranlarla sarsıldığı bir dövrdə bir-bir açılışını etdiyimiz bu layihələrin ölkələrimizi həm ayrılıqda öz qayələrinə, həm də ortaq hədəflərinə yaxınlaşdırdığına inandığını söyləyib.

Türkiyənin dövlət başçısı son 30 ildə həyata keçirilən ən böyük real sektor sərmayəsi olan "Star" neft emalı zavodunun Avropa, Yaxın Şərq və Şimali Afrika bölgələrində ən böyük neft müəssisələrindən biri olaraq uğurla fəaliyyət göstərəcəyini bildirib. Qeyd edib ki, bu neft emalı zavodu Türkiyənin ən böyük enerji layihəsidir. Bu baxımdan neft məhsulları idxalında hər il 1,5 milyard dollar məbləğində qənaət edilməsi, neft məhsullarında xaricdən asılılığın azalması hədəflənir. Gündə 214 min barrel, ildə 10 milyon ton xam neft emalı gücünə və 1,6 milyon kubmetr ehtiyat saxlama qabiliyyətinə malik zavodda dizel, nafta, təyyarə benzini və LPG kimi neft məhsullarının istehsalı həyata keçiriləcək.

Məşğulluq baxımından da mühüm əhəmiyyət daşıyan bu müəssisədə 1100 nəfərin çalışacağını söyləyən Rəcəb Tayyib Ərdoğan zavodun Türkiyə və Azərbaycan iqtisadiyyatlarına mühüm fayda verməklə yanaşı, Egey bölgəmizin rifahını yüksəldəcəyini vurğulayıb.

"Biz iki dövlət, bir millət olaraq öz ölkələrimizlə yanaşı, bölgədəki bütün xalqların təhlükəsizliyi, sabitliyi, rifahı və zənginliyi üçün çalışırıq", - deyən Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə və Azərbaycanın bölgəmizin təhlükəsizliyinin və sabitliyinin əsas aktorları olduğu artıq hamı tərəfindən qəbul edilməyə başlanıb. Azərbaycan torpaqlarının 20 faizinin əsrin dörddəbiri qədər işğal altında qalması qəbul edilə bilməz. Ölkəmizin və Azərbaycanın bu münaqişənin həlli istiqamətində göstərdiyi təşəbbüslərə beynəlxalq ictimaiyyət daha səssiz qala bilməz. BMT başda olmaqla regional və qlobal problemlərin həlli üçün qurulan təşkilatların bu səssizliyi onların özlərini də məhvə sürükləyir. Haqq-ədalət duyğu-




sundan uzaq, içi boş olan beynəlxalq qurumun heç bir cəmiyyətin və şəxsin gözündə etibarı qalmaz. Biz, beynəlxalq ictimaiyyətin Qarabağ məsələsi başda olmaqla dünyada ortaya çıxan haqsızlıqlara "Dur!" deməsini gözləyirik. Sabitliyin, əmin-amanlığın, rifahın təmin olunması qaydaları istisnasız bütün dövlətlər üçün tətbiq edilməzsə, kimsə gələcəyinə əminliklə baxa bilməz. Türkiyə və Azərbaycan olaraq biz istənilən vəziyyətdə və şərtlər altında inandığımız dəyərlər uğrunda apardığımız birgə mübarizəni davam etdirəcəyik.

Sonra dövlət başçıları zavodun açılışını edib, "Əliağa-SOCAR"ın baş ofisinin binası ilə tanış olublar. Prezident



İlham Əliyevə və Prezident Rəcəb Tayyib Ərdoğana burada yaradılan şərait barədə məlumat verilib. Ofis binası ən müasir avadanlıqla təchiz olunub. Burada İKT-ın ən son yenilikləri tətbiq edilib.

Sonda xatirə şəkli çəkdirilib.

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri başa çatıb.

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

İclası giriş nitqi ilə açan dövlətimizin başçısı Azərbaycanın 2018-ci ildə də öz dinamik inkişafını təmin etdiyini və ölkəmizin əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşadığını söyləyib, bunun təməlində düşünülmüş siyasətin və xalq tərəfindən göstərilən dəstəyin dayandığını vurğulayıb.

2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmləndiyini, doqquz ay ərzində 12 xarici ölkəyə, 15 dövlət və hökumət başçısı tərəfindən isə Azərbaycana səfərlər edildiyini deyən Prezident İlham Əliyev respublikamızın dünyada etibarlı tərəfdaş kimi tanındığını, həmçinin cari ildə qonşu dövlətlərlə əlaqələrimizin yeni pilləyə qalxdığını, müsəlman ölkələri ilə əlaqələrin diqqət mərkəzində olduğunu qeyd edib.

Bu il ölkəmizin iştirakı ilə bir neçə önəmli beynəlxalq hadisənin baş verdiyini deyən dövlətimizin başçısı Azərbaycanın milli maraqlarının tam şəkildə öz əksini tapdığı, xəzəryanı beş ölkənin uzun danışıqlardan sonra razılığa gəldiyi Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsini, ölkəmizin uğurla fəaliyyət göstərdiyi və gələn ildən sədrlik edəcəyi Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin Azərbaycanda böyük konfransının keçirildiyini, Avropa İttifaqı ilə əlaqələrimizin inkişafı istiqamətində növbəti ciddi addımın atıldığını və Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalandığını qeyd edib.

Həmin sənəddə bir çox önəmli məsələlərin, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan müddəaların həm ədalətli, həm də bizim mövqeyimizi və maraqlarımızı tam şəkildə ifadə etdiyini bildirən Prezident İlham Əliyev münaqişəyə toxunaraq Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayacağını bir daha bəyan edib və vurğulayıb ki, münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır, - deyən ölkə Prezidenti bu il Bakıda iki dəfə keçirilmiş möhtəşəm hərbi paradlarda hərbi qüdrətimizin həm xalqımıza, həm dünyaya nümayiş etdirildiyini vurğulayıb, hərbi potensialımızın maddi-texniki təchizat baxımından tam təmin edildiyini ordumuzun döyüş qabiliyyətinin də yüksək səviyyədə olduğunu qeyd edib.

2018-ci ildə iqtisadi sahədə islahatlardan danışan dövlət başçısı doqquz ayının göstəricilərini diqqətə çatdırıb. Bildirib ki, ümumi daxili məhsul 0,8 faiz, qeyri-neft sektoru 1 faiz, sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artıb. Kənd təsərrüfatı da doqquz ayda 4,3 faiz artıb. İnflyasiya cəmi 2,6 faizdir, əhalinin gəlirləri isə 9,5 faizdir. Həmçinin ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulub ki, bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna yatırılıb. Valyuta ehtiyatlarımız isə 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri əlavə 3 milyard dollar yığılıb. Doqquz ayda xarici ticarət dövriyyəsi 37 faiz artıb. İxrac da təxminən bir o qədər artıb. Qeyri-neft ixracı isə təxminən 14 faiz artıb. Ölkəmizdə 85 min daimi iş yeri açılıb.

Ölkəmizin uğurlu inkişafı üçün yerli istehsalın artmasını



ən önəmli amillərdən biri kimi dəyərləndirən Prezident İlham Əliyev dövlətin dəstəyi ilə bu istiqamətdə bir çox layihələrin icra edildiyini qeyd edərək bu il İtaliya Prezidenti ilə birgə polipropilen zavodunun açılışını, Azərbaycanın Türkiyədəki "Star" neftayırma zavodunun istifadəyə verilməsini misal çəkib, 2018-ci ilin enerji siyasətimizin inkişafı üçün önəmli il olduğunu, may ayında Bakıda Cənub Qaz Dəhlizinin rəsmi açılışını, ondan bir ay sonra Türkiyədə TANAP layihəsinin açılışını qeyd edib, həmçinin qaz hasilatının artırılması ilə bağlı hədəflərdən bəhs edib. Xəzər dənizinin ən böyük limanı olan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsini tarixi layihə adlandırıb.

Sonra vergilər naziri Mikayıl Cabbarov, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov məruzə ilə çıxış ediblər.

İclasa yekun vuran dövlətimizin başçısı ilin sonunadək nəzərdə tutulan bütün işlərin, o cümlədən Dövlət İnvestisiya Proqramının tam icra ediləcəyini vurğulayıb, bu il iqtisadi sahədə köklü islahatların davam etdirildiyini, vergi və gömrük sistemində aparılan islahatların müsbətə doğru dəyişikliklərə səbəb olduğunu bildirib. Qeyd edib ki, bu gün sahibkarları, ictimaiyyəti narahat edən vergi və gömrük sahəsində işlərlə, məsələlərlə bağlı bütün lazımi addımlar atılmalıdır ki, bu xoşagəlməz hallara son qoyulsun. Həmçinin bildirib ki, vergidən yayınmaya son qoyulmalıdır. Bu, həm iri, həm kiçik sahibkarlara aiddir. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar sahibkarlar kimi öz fəaliyyətini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Bilirəm ki, bəzi sahibkarlar bəzi dövlət məmurlarına arxalanırlar, o dövr artıq keçibdir. Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq.

Ölkə Prezidenti, həmçinin uçot sisteminin yaradılmasının prioritet məsələlərdən olduğunu, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün də praktiki addımların atıldığını bildirib, vergi və gömrük orqanlarında şəffaflığın tam təmin olunması, struktur islahatların davam etdirilməsi, korrupsiyaya, rüşvətxorluğa qarşı ən ciddi mübarizənin davam etdirilməsi ilə bağlı tapşırıqlarını verib, iqtisadiyyatın rəqabətliliyinin daha da

artırılmasının vacibliyini önə çəkib.

Dövlət başçısı bu yaxınlarda orbitə çıxarılmış "Azerspace-2" peykinin, Bakıda neftayırma zavodunun yenidən qurulmasının, modernləşdirilməsi prosesinin perspektivləri barədə danışıb, sənaye parkları ilə bağlı bir sıra şəhər və rayonlarda yeni müəssisələrin, sənaye məhəllələrinin yaradılması prosesinin davam etdiyini, sahibkarlara bundan sonra da dövlət tərəfindən dəstək göstəriləcəyini, kənd təsərrüfatı sahəsində aparılan islahatların daha da böyük nəticələrə çatmağa imkan verəcəyini vurğulayıb, pambıqçılığın daha səmərəli şəkildə inkişaf etdirməsi ilə bağlı fikirlərini söyləyib. Həmçinin, üzümçülüklə bağlı işlərin yaxşı getdiyini, zeytunçuluğun inkişafını, tütün istehsalının təşviqinin müsbət nəticələrini, tərəvəzçilik, meyvəçilik, baramaçılıq sahələrində irəliləyişlərin olduğunu vurğulayıb. Kənd təsərrüfatı ilə bağlı yekun olaraq bildirib ki, daxili tələbat təmin edilməli, məhsuldarlıq artırılmalı, elmi yanaşma tətbiq edilməli və ixrac imkanlarımız genişləndirilməlidir.

Prezident İlham Əliyev bu sahədə "ABAD" - "Ailə Biznesinə Asan Dəstək" mərkəzləri yaradılmasını alqışlayıb, "ASAN xidmət" mərkəzlərinin inşasının davam etdirilməsini qeyd edib, sosial sahədə ciddi islahatların aparıldığını söyləyib.

Həmçinin şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün evlərin tikintisinin daha da sürətlə gedəcəyini, məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində olduğunu və onların mənzil şəraitinin yaxşılaşdırılması üzrə mühüm addımların atıldığını söyləyib, bu sahədə də çox ciddi islahatların həyata keçirilməsini, uçotun aparılmasını, şəffaflığın təmin edilməsini, ədalətsizliklərin və pozuntulara yol açan boşluqların aradan qaldırılmasını tapşırıb.

Dövlətimizin başçısı infrastruktur layihələri ilə bağlı görülən və qarşıda duran işlərə toxunub, ölkəmizin ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlərin müəyyən edildiyini bildirib, ağacların kəsilməsi hallarının tam aradan qaldırılmasını, Bakı və digər şəhərlərdə qanunsuz tikililərə son qoyulması barədə göstərişlərini verib, şəhər nəqliyyatı sahəsində irəliləyişləri qeyd edib. Ölkə rəhbəri, həmçinin məişət tullantıları, binaların həyətlərinin abadlaşdırılması ilə tapşırıqların icrasını diqqətə çatdırıb, dəmir yolu ilə bağlı bəzi layihələri qeyd edib.

Sonda Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafı ilə bağlı üçüncü Dövlət Proqramının icrasının başa çatmasını və onun artıqlaması ilə icra edildiyini qeyd edərək hazırda dördüncü proqramın hazırlandığını və burada qarşıda duran bütün vəzifələrin icrası ilə bağlı görülәsi işlərin əks olunmasını tapşırıb.






# VI BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMU

**Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun açılışında iştirak ediblər.

"Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunda 90-dan artıq ölkədən 400-dən çox xarici qonaq iştirak edib.

Forumun açılışında çıxış edən dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın humanitar sahəyə çox böyük önəm verən ölkələrdən biri olduğunu və ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlərin keçirildiyini qeyd edib, 10 il bundan əvvəl Azərbaycanın təşəbbüsü ilə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına İslam ölkələrinin mədəniyyət nazirlərinin dəvət olunduğunu, bu formatın bir il sonra da təkrarlandığını, bununla da ölkəmizin həm İslam Əməkdaşlıq Təşkilatına, həm Avropa Şurasına üzv dövlət kimi sivilizasiyalararası dialoqa töhfə verdiyini diqqətə çatdırıb. Prezident İlham Əliyev bunun idman formatında da özünü göstərdiyini, Bakıda keçirilən





birinci Avropa Oyunlarının və IV İslam Həmrəylik Oyunlarının bunu bir daha təsdiqlədiyini bildirib.

Dövlət başçısı əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələrinin Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşadığını, bu istiqamətdə dövlət siyasətinin səmərəli nəticələrə gətirib çıxardığını söyləyib, ənənəvi dinlərin məbədlərinin bərpasının və tikintisinin Azərbaycanda gözəl ictimai iqlim yaratdığını, multikulturalizmin ölkəmizdə dövlət siyasəti olduğunu vurğulayıb, müasir Azərbaycan dövlətinin həm də dərin milli-mənəvi dəyərlər üzərində qurulduğunu diqqətə çatdırıb.





Müstəqilliyimizin ilk illərində ölkəmizin böyük humanitar fəlakətlə üzləşdiyini, Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, xalqımıza qarşı etnik təmizləmə siyasətinin aparıldığını, 1 milyondan çox azərbaycanlının öz doğma torpağında məcburi köçkünə çevrildiyini deyən Prezident İlham Əliyev bildirib





ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməyə əsasən erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Lakin 25 il keçməsinə baxmayaraq Ermənistan tərəfindən bu qətnamələr icra edilməyib. BMT-nin Baş Assambleyası və digər beynəlxalq təşkilatların da buna oxşar qəbul etdikləri qərar və qətnamələrində

Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilir və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi tələb olunur.

"Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, Azərbaycanın ayrılmaz hissəsidir", - deyən Prezident İlham Əliyev işğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimizin, məscidlərimizin, qəbirlərimizin dağıdıldığını, muzeylərimizin talan edildiyini bildirib, Azərbaycanın heç vaxt işğalla barışmayacağını, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinin vacibliyini diqqətə çatdırıb, bu humanitar fəlakətə baxmayaraq, müstəqillik dövründə Azərbaycanın çox uğurlu inkişafa nail olduğunu söyləyib.

Ölkəmizin beynəlxalq müstəvidə böyük hörmət qazandığını bildirən dövlətimizin başçısı Azərbaycanın son 15 il ərzində iqtisadi sahədə ən sürətli inkişaf templərini nümayiş etdirdiyini diqqəyə çatdırıb. Bildirib ki, ötən dövrdə ümumi daxili məhsul 3,2 dəfə artıb, maliyyə ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur, Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı son 15 il ərzində 49 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Həmçinin təhsilin inkişafının diqqət mərkəzində saxlanıldığını, son 15 il ərzində 3000-dən çox məktəbin tikildiyini, ölkəmizin hər bir yerində müasir tibb mərkəzlərinin yaradıldığını, 650-dən çox tibb müəssisəsinin yenidən qurulduğunu, hər il 5 milyondan çox insanın dövlət hesabına pulsuz tibbi müayinədən keçdiyini vurğulayıb.

Ölkə Prezidenti idman sahəsində də əldə olunan böyük uğurlardan danışaraq təkcə Bakıda deyil, Azərbaycanın digər şəhərlərində 45 müasir Olimpiya İdman Mərkəzinin yaradıldığını, Rio-de-Janeyroda keçirilmiş Olimpiadada medalların sayına görə Azərbaycanın dünya miqyasında 14-cü yerə layiq görüldüyünü vurğulayıb, yüksək texnologiyalara çox böyük diqqət göstərildiyini, bu yaxınlarda üçüncü peykimizin orbitə buraxıldığını və Azərbaycanın artıq neçə ildir ki, dünyanın məhdud sayda olan kosmik klubunun üzvü olduğunu qeyd edib.

Həmçinin diqqətə çatdırıb ki, "ASAN xidmət" mərkəzlərinin yaradılması sosial və humanitar sahədə çox önəmli təşəbbüsdür. Bu il bu mərkəzlərin sayı 15-ə çatdırılacaq, 5-i Bakıda, 10-u bölgələrdə. Bu mərkəzlərdə bir binada 300-dən çox xidmət göstərilir və vətəndaşların "ASAN xidmət"i bəyənmə əmsalı 100 faizə yaxındır. Bu, ictimai xidmətlər sahəsində bir inqilab olmuşdur. İctimai xidmətlər sahəsinə xas olan bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq hallarına tamamilə son qoyulubdur. Bir neçə il ərzində "ASAN xidmət" mərkəzlərinə 24 milyondan çox müraciət olmuşdur və onların mütləq əksəriyyəti təmin edilmişdir.

Çıxışının sonunda nəqliyyat siyasətinə toxunan dövlətimizin başçısı Azərbaycanın coğrafi vəziyyətinin əlverişli olduğunu, ölkəmizin nəinki bu bölgədə, dünya miqyasında güclü nəqliyyat mərkəzinə çevrildiyini, çox müasir nəqliyyat infrastrukturunun yaradıldığını diqqətə çatdırıb. Bildirib ki, bu gün Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyəti daha da genişlənib. Keçən illə müqayisədə bu il bu dəhliz vasitəsilə 100 dəfədən çox həcmdə yük daşınıbdır. Bütün bu nəqliyyat, infrastruktur layihələrində iştirak edən yeganə ölkə Azərbaycandır. Bizim enerji, nəqliyyat, infrastruktur layihələrimiz ölkələr arasındakı əməkdaşlığı stimullaşdırır. Ölkələr arasındakı əməkdaşlığı dərinləşdirmək üçün xüsusilə qonşu ölkələrlə, ənənəvi dost ölkələrlə münasibətlərdə mütləq humanitar sahəyə böyük önəm verilməlidir.

Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets Prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxuyub və çıxış edərək Forumun necə sürətlə inkişaf etməsindən heyrətləndiyini, onun sivilizasiya, mədəniyyətlərarası, millətlərarası və dinlərarası münasibətlərin inkişafına dair dünya miqyasında dialoqun tərəqqisi üçün ən əhəmiyyətli məkanlardan birinə çevrilməsinin ölkə rəhbərliyinin xidməti olduğunu vurğulayıb, Rusiyanın Azərbaycanla sıx əməkdaşlığını və prezidentlərin humanitar inkişaf məqsədlərinə ürəkdən sadiq olduqlarını bildirib.

Həmçinin, BMT baş katibinin müavini Rəşid Xalikov, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri, UNESCO-nun baş direktorunun müavini Çu Sin, Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baron çıxış ediblər.

Bununla da VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimi başa çatıb. Açılış çıxışlarından sonra Forum işini plenar və işçi sessiyalarla davam etdirib.

## *Dayanıqlı İnkişafa Dair Bakı Forumu*

**Altıncı Beynəlxalq Humanitar Forum çərçivəsində oktyabrın 25-26-da Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının, İqtisadiyyat Nazirliyinin və Birləşmiş Millətlər Təşkilatının ölkə üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Dayanıqlı İnkişafa Dair Bakı Forumu keçirilib.**

"Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində regional tərəfdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunan Forumda əvvəlcə Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması istiqamətində görülən işlərə və qazanılan nailiyyətlərə dair videoçarx nümayiş etdirilib.

Forumun moderatoru, "TRT World"un xəbər müxbiri xanım Maria Ramos Dayanıqlı İnkişaf Məqsədlərinə həsr olunmuş ilk Forumun Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib. O, Forumda dünyanın müxtəlif regionlarını təmsil edən 30-dan çox ölkədən nümayəndələrin iştirak etdiklərini diqqətə çatdırıb. M.Ramos Forumun əlamətdar günə - BMT-nin yaradılmasının 73-cü ildönümünə təsadüf etməsini xüsusi vurğulayıb, bu münasibətlə təbriklərini çatdırıb. O, bu Forumda regionda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində Bakı prinsiplərinin müəyyən edildiyini vurğulayıb.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Bakıda VI Beynəlxalq Humanitar Forumunun və Dayanıqlı İnkişaf Məqsədlərinə dair Forumun keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib. Bildirib ki, bu gün bəşəriyyətin üzərində ciddi çalışdığı ən mühüm məsələlər arasında Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı Gündəliyin həyata keçirilməsi mühüm yer tutur. Dayanıqlı İnkişaf Məqsədləri üzrə götürdüyü öhdəliklərin həyata keçirilməsi Azərbaycanın dövlət siyasətinin ən əhəmiyyətli tərkib hissələrindən biridir.

Dayanıqlı İnkişaf Məqsədlərinin dünyada aclıq, yoxsulluq, qaçqın və məcburi köçkün problemi, ədalətsizliyin qarşısının alınması kimi mühüm problemlərin aradan qaldırılması baxımından mühüm sənəd olduğunu vurğulayan Əli Əhmədov bütün bunların bəşəriyyəti düşündürən və həlli vacib məsələlər olduğunu bildirib. Bu baxımdan Azərbaycanın dünyaya örnək olduğunu vurğulayan Baş nazirin müavini ölkəmizin 30 ilə yaxın müddətdə 1 milyondan çox qaçqın və məcburi köçkün problemi olmasına baxmayaraq, sürətlə inkişaf etdiyini diqqətə çatdırıb, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında regional əməkdaşlığın əhəmiyyətini xüsusi qeyd edib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai 73 il əvvəl qəbul olunan BMT Nizamnaməsinin və BMT-nin İnsan Hüquqları Bəyannaməsinin Minilliyin İnkişaf Məqsədlərinin əsasını təşkil etdiyini bildirib. Qeyd edib ki, Məqsədlərin həyata keçirilməsi üçün sözdən əmələ keçməyin vaxtı çatıb. 2030-cu ilə qədər yol xəritələri, milli planlar müəyyən edilməlidir. Gündəliyin tələblərinə uyğun




olaraq QHT-lərin səyləri birləşdirilməli, innovasiyalardan istifadə edilməlidir. Bu isə bütün bəşəriyyətin kütləvi şəkildə səmərəli fəaliyyət göstərməsini şərtləndirir.

Azərbaycan hökumətinin BMT-nin ölkədəki hökuməti ilə səmərəli əməkdaşlıq etdiyini vurğulayan Qulam İshaqzai buna görə minnətdarlığını bildirib. O, Bakı Forumunun 2030-cu ildə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına mühüm töhfə verəcək müzakirələrin aparılması baxımından əhəmiyyətini vurğulayıb.

Digər çıxış edənlər də Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması yollarından bəhs edib, bununla bağlı faydalı fikir və təcrübə mübadiləsinin aparılmasında Bakı Forumunun xüsusi önəmini qeyd ediblər.

Forumda DİM üzrə seçilmiş "Gənc səfirlər" iştirakçılara təqdim olunub və onlar mükafatlandırılıblar. Qısa fasilədə BMT günü münasibətilə DİM üzrə mahnıların təqdimatı olub.

İki gün davam edən Forumda "Davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, tam və səmərəli məşğulluğu və hamı üçün layiqli əmək imkanlarını təşviq etmək", "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində gənclər, qadınlar, parlament, vətəndaş cəmiyyəti və digər maraqlı tərəflərin rolu barədə interaktiv müzakirə", "2030-cu ilədək dayanıqlı inkişaf üçün sülhsevər və inklüziv cəmiyyətləri təşviq etmək, hamı üçün ədalət məhkəməsinə çıxış imkanını təmin etmək və bütün səviyyələrdə səmərəli, məsuliyyətli və inklüziv təşkilatlar qurmaq", "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında BMT-nin İnkişaf Proqramının aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək missiyasının rolu" və "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün təmiz su təchizatı, o cümlədən iqlim dəyişikliyi və onun təsirləri ilə mübarizə aparmaq üçün əməkdaşlığın gücləndirilməsi" mövzusunda sessiyalar keçirilərək çoxsaylı çıxışlar edilib, müzakirələr aparılıb.

Oktyabrın 26-da Forumun bağlanış mərasimi keçirilib və yekunda DİM-in milli səviyyədə inteqrasiyası və icrasının sürətləndirilməsinə dair Bakı prinsipləri qəbul edilib. Bununla da Dayanıqlı İnkişafa dair Bakı Forumu başa çatıb.



# Prezident İlham Əliyev İmişli Rayon Məhkəməsinin yeni binasında yaradılan şəraitlə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İmişli Rayon Məhkəməsinin yeni binasında yaradılan şəraitlə tanış olub.**



İmişli Rayon Məhkəməsinin sədri Qurban Hacıyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Bildirib ki, ümumi sahəsi 2300 kvadratmetr olan bina ikimərtəbəlidir. Bu bina da digər yeni tikilmiş məhkəmə binalarında olduğu kimi, ictimai və inzibati zonalara bölünüb, habelə əlillərin sərbəst hərəkəti üçün bütün şərait yaradılıb. Binada dövlətimizin başçısının tapşırığına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastruktur qurulub, Dünya Bankı ilə Ədliyyə Nazirliyinin həyata keçirdiyi birgə layihə çərçivəsində bina müasir İKT ilə təchiz edilib, ən yüksək səviyyədə məhkəmə və konfrans zalları inşa olunub. Burada videokonfransların, elektron sənədlərin dövriyyəsi və məhkəmə işlərinin idarə olunmasına xidmət edən və audio-video yazılışları aparan avadanlıqlar quraşdırılıb. Məhkəmədə "elektron icra" sistemi tətbiq edilir və bu sistem vasitəsilə məhkəmə qərarlarının elektron qaydada icraya yönəldilməsi təmin olunur, məhkəmə ilə icra qurumu arasında sənədlərin kağızsız mübadiləsi həyata keçirilir. Dörd hakim, 30-dək məhkəmə və ədliyyə işçisinin fəaliyyəti üçün nəzərdə tutulan binada müxtəlif tədbirlər keçirməyə imkan verən konfrans zalı və təlim otağı, habelə kitabxana, arxiv, təqsirləndirilən şəxslərin saxlanması üçün kameralar, konvoy maşını üçün dayanacaq və digər sahələr mövcuddur.



İmişli Rayon Məhkəməsində vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və məlumatlılığın təmin edilməsi məqsədilə məlumat nöqtələri, habelə müasir elektron informasiya daşıyıcıları quraşdırılıb. Bunlar vətəndaşlara məhkəmə prosesləri və onların tarixi, vaxtı, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan yaradır.

Onu da deyək ki, son illərdə dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində paytaxtda və bölgələrdə 14 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilərək istifadəyə verilib, hazırda isə 7 məhkəmə üçün bina və komplekslərin inşası davam edir.

Qeyd edək ki, son illərdə ölkədə bütün sahələrə olduğu kimi, ədalət mühakiməsinin səmərəsinin artırılmasına xidmət edən genişmiqyaslı islahatlar aparılır, məhkəmə sistemi daha da müasirləşdirilir. İmişli Rayon Məhkəməsinin yeni binasının inşası da bu islahatların əyani təsdiqidir.

# Ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyəti ilə tanışlıq

**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mütərəqqi islahatlar çərçivəsində ədliyyə və məhkəmə sistemi təkmilləşir, infrastruktur müasirləşdirilir, vətəndaşların bu orqanlara müraciət imkanları asanlaşdırılır, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi üzrə ardıcıl tədbirlər görülür.**



Oktyabrın 27-də Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi - şöbə müdiri Fuad Ələsgərov Şəki şəhərinə səfəri çərçivəsində yerli ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyəti ilə tanış olub.

Ədliyyə Nazirliyinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində inşa olunmuş və 2015-ci ildə dövlət başçısının açılışını etdiyi Şəki Məhkəmə Kompleksinə gələn F.Ələsgərova burada yaradılan müasir şərait və tətbiq olunan yeniliklər barədə məlumat verilib.

Bildirilib ki, ölkəmizdə konseptual baxımdan yeni olan və "bir qapı" prinsipi ilə fəaliyyət göstərən kompleksdə Şəki Apellyasiya Məhkəməsi, Şəki İnzibati-İqtisadi Məhkəməsi, Şəki Ağır Cinayətlər Məhkəməsi və Şəki Rayon Məhkəməsi yerləşir. Bina inzibati və ictimai zonalara bölünür ki, bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər.

Həmçinin, kompleksdə fəaliyyət göstərən məhkəmələr tərəfindən "elektron məhkəmə" informasiya sistemi tətbiq olunur, məhkəmə proseslərində audio və video yazıların aparılması üçün lazımi şərait yaradılıb, bina distant müşavirə və seminarların keçirilməsi üçün zəruri olan bütün İT texnologiyalarla təchiz edilib.

F.Ələsgərov kompleksin

ictimai zonasında yerləşdirilmiş məhkəmə proseslərinə dair məlumatları özündə əks etdirən elektron monitor və qurğulara baxıb, məhkəmə zalları, treninq otaqları, konfrans və rəyasət heyətinin zalları, habelə hakimlərin iş otaqlarında yaradılmış şəraitlə tanış olub.

Tanışlıq zamanı görülmüş işlərin təqdirəlayiq olduğu vurğulanıb, habelə hakimləri maraqlandıran həm qanunvericiliyə, həm də təşkilati məsələlərə dair fikir mübadiləsi aparılaraq müvafiq tövsiyələr verilib.

Prezidentin köməkçisi, həmçinin yerli və regional ədliyyə qurumlarının fəaliyyəti ilə maraqlanıb, icra və probasiya, qeydiyyat şöbələrinin, Məhkəmə ekspertizası mərkəzinin Şəki regional bölməsinin işi barədə müfəssəl məlumat verilib.

Aparılmış fikir mübadiləsi zamanı məhkəmə ekspertizası sahəsində işin təşkili, ekspertiza tədqiqatlarının aparılması, habelə probasiya xidmətinin fəaliyyəti ilə bağlı məsələlər müzakirə olunub, dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülən tədbirlərə toxunularaq azadlığın məhdudlaşdırılması və digər azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqi və onların icrası zamanı elektron qolbaqlardan istifadə olunması məmnunluqla qarşılanıb, cəzaların icrasına nəzarətin genişləndirilməsi və bu işin yerlərdə də həyata keçirilməsinin vacibliyi qeyd edilib, təkliflər irəli sürülüb.






Səfər çərçivəsində Prezidentin köməkçisi F.Ələsgərov Şəki penitensiar kompleksinə də baş çəkərək həbs edilmiş şəxslərin və məhkumların saxlanma şəraiti ilə tanış olub, vəkillər, istintaq hərəkətlərinin aparılması, habelə görüş üçün ayrılmış otaqlara, tibb sanitar hissəsinə və digər sahələrə baxış keçirib, məhkumların təminatı ilə maraqlanıb və məmnun qalıb.

# Ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir






**Ölkə Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ədliyyə naziri Fikrət Məmmədov Masallı rayonunda Masallı, Cəlilabad və Yardımlı rayonlarından olan vətəndaşların qəbulunu keçirib.**

Tədbirdən əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək, önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib. Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilərək qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Bölgə sakinləri onların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasına, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı nazir yerli ədliyyə və məhkəmə orqanlarına baş çəkərək fəaliyyəti və iş şəraiti, habelə Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi Masallı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub, ədliyyə işçiləri ilə görüşərək fəaliyyətin təkmilləşdirilməsi, vətəndaşlara qayğılı münasibət göstərilməklə məmnunluğun təmin olunması, neqativ halların yolverilməzliyi, etik davranış qaydalarına və nizam-intizama dönmədən əməl edilməsi ilə bağlı qəti tapşırıqlar verib.

Həmçinin Dünya Bankı ilə birgə həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində Masallıda inşa olunan yeni məhkəmə binasının tikintisinin gedişatı ilə tanış olunub. Müasir tələblərə uyğun inşa olunan üç mərtəbədən ibarət məhkəmə binasının vətəndaşlarla hakimlər arasında qeyri-prosessual münasibətlərin qarşısını almaq məqsədilə ictimai və inzibati zonalara bölünməsi, həmçinin, elektron məhkəmə informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastrukturun quraşdırılması nəzərdə tutulub. Nazir tikinti işlərinin vaxtında və keyfiyyətlə aparılmasına dair müvafiq göstərişlər verib.

Həmin gün ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Şirvan Apellyasiya Məhkəməsinin və onun yurisdiksiyasına daxil olan bölgənin birinci instansiya məhkəmələri sədrlərinin və hakimlərinin iştirakı ilə geniş zona müşavirəsi keçirib.

Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının aidiyyəti məsul işçilərinin də iştirak etdiyi müşavirədə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlər, bu sahədə yol verilən nöqsanlar və qarşıda duran vəzifələr müzakirə olunub.

Müşavirədə ölkə Prezidenti cənab İlham Əliyevin ədalət

mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq görülən işlərdən danışan Fikrət Məmmədov məhkəmə sisteminin müasirləşdirilməsini, hakimlərin ən şəffaf seçimini, elektron məhkəmə informasiya sisteminin tətbiqini, yeni məhkəmə bina və komplekslərinin tikilərək istifadəyə verilməsini qeyd edərək, həyata keçirilən tədbirlərin məhkəmə fəaliyyətinin yüksək səviyyədə təmin olunmasına, vətəndaşların müraciət imkanları artırılmaqla məhkəmə sisteminə əlçatanlığın asanlaşdırılmasına və insan hüquqlarının etibarlı təminatına yönəldiyini bildirib.

Qeyd olunub ki, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi çərçivəsində məhkəmə qərarlarının ədalətliliyinin təmin olunması, şəffaflığın artırılması, korrupsiyanın yolverilməzliyi daim diqqətdə saxlanılır. Ötən dövrdə kobud qanun pozuntularına, korrupsiya hüquqpozmalarına və vətəndaşların haqlı narazılığını doğuran digər nöqsanlara yol verən hakimlər barəsində Məhkəmə-Hüquq Şurasının qərarları ilə ciddi intizam tədbirləri görülüb. Təkcə ötən il qiymətləndirmə nəticəsində 20 hakim, o cümlədən 7 məhkəmə sədrinin səlahiyyətinə xitam verilib, 6 məhkəmə sədri və apellyasiya məhkəməsinin 8 hakimi aşağı işə keçirilib.

Müşavirədə hakimlər tərəfindən bəzi hallarda süründürməçilik, işlərin hərəkətsiz saxlanılması, tərəflərin bərabərliyi və çəkişmə prinsipinin real təmin olunmaması, Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə etinasız yanaşılaraq vətəndaşlarla kobud rəftara yol verilməsi qeyd olunaraq belə halların insanların haqlı narazılığına səbəb olduğu bildirilib.

Bununla bağlı məhkəmə hakimiyyətində mənəvi cəhətdən saf hakimlərin təmsil olunmasının zəruriliyi vurğulanıb, hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilərək hakim adına və nüfuzuna xələl gətirən şəxslərin məhkəmə sistemindən kənarlaşdırılması, eləcə də hakim korpusunun yeni nəsil hüquqşünaslarla komplektləşdirilməsi üzrə işlərin davam etdirildiyi qeyd olunub.

Həmçinin, etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşların məhkəmələrə etimadının artırılması ilə bağlı qarşıda duran vəzifələr diqqətə çatdırılıb, apellyasiya məhkəmələri tərəfindən prinsipiallığın artırılmasının, qanun pozuntularına ciddi reaksiya verilməsinin, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi vurğulanıb.

# Məhkəmə-Hüquq Şurasının iclaslarında

**Məhkəmə-Hüquq Şurasının iclası keçirilib. İclasda çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə təməli ümummilli liderimiz tərəfindən qoyulmuş islahatların Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf etdirildiyini vurğulayıb.**

Ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlərə toxunaraq, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, hakimlərin Avropada nümunə kimi göstərilən şəffaf seçiminin həyata keçirilməsi, insanların məhkəmələrə müraciət imkanlarının asanlaşması, o cümlədən "elektron məhkəmə" informasiya sisteminin və yeni məhkəmə infrastrukturunun yaradılması üzrə əməli tədbirləri qeyd edib.

İclasda dövlət başçısının vətəndaşlara qayğılı münasibət göstərilməsi, korrupsiya və digər neqativ halların aradan qaldırılması ilə bağlı qəti tapşırıqlarının icrası çərçivəsində həyata keçirilən tədbirlər diqqətə çatdırılıb, Məhkəmə-Hüquq Şurasının fəaliyyəti dövründə 230-dan çox hakim barədə intizam icraatının başlandığı, qanun pozuntusu və digər neqativ hallara yol verdikləri nəzərə alınaraq 100-dən çox hakimin məhkəmə sistemindən kənarlaşdırıldığı vurğulanıb.

Məhkəmə fəaliyyətində mövcud nöqsanların aradan qaldırılması üçün əlavə təsirli qəti tədbirlərin görülməsi, yuxarı məhkəmələr tərəfindən işlərə baxılarkən aşkar edilən kobud qanun pozuntuları, xüsusilə korrupsiya ilə əlaqədar hüquqpozmalara və



digər neqativ hallara prinsipial münasibət bəslənilməsinin vacibliyi bildirilib.

Qeyd edilib ki, məhkəmə hakimiyyətinin yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hakimlər hesabına komplektləşdirilməsinin əhəmiyyəti nəzərə alınıraq 800-dən çox hakimliyə namizədlə tam şəffaf şəraitdə müsabiqə keçirilib. Onlardan 108 nəfəri müsabiqəni, o cümlədən çoxmərhələli imtahanları və bir il müddətində davam etmiş təlim kurslarını, məhkəmələrdə, habelə Ankarada və Strasburqda-Avropa Məhkəməsində stajkeçməni uğurla başa vurmuşdur.

Hakimliyə namizədlərin seçim qaydasına müvafiq olaraq Məhkəmə-Hüquq Şurasında həmin namizədlərlə bağlı Hakimlərin Seçki Komitəsinin təkliflərinə baxılmış, onların ixtisaslaşmasının aparılması məqsədilə hər biri ilə fərdi qaydada söhbətlərin keçirilməsinə başlanılmışdır.

Bildirilmişdir ki, bu hakimliyə namizədlər hesabına məhkəmə korpusunda mövcud olan vakansiyaların tam əksəriyyətinin komplektləşdirilməsi hakimlərin iş yükünün xeyli azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına və süründürməçilik hallarının aradan qaldırılmasına xidmət edəcəkdir.

İclasda həmçinin, hakimlər barədə intizam icraatlarına baxılaraq qanunvericiliyin tələblərinin kobud pozulmasına, korrupsiyaya şərait yaradan hallara, süründürməçilik və digər nöqsanlara yol verilməsi ilə əlaqədar Bakı şəhərinin Qaradağ rayon məhkəməsinin hakimi Rəşad Məmmədova töhmət verilib, Səbail rayon məhkəməsinin hakimi Nüraddin Bağırovun tutduğu vəzifədən azad olunması, Zaqatala rayon məhkəməsinin hakimi Arif İsmayılovun isə hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə qərar qəbul edilib.

Eyni zamanda 4 hakimin də səlahiyyətlərinə digər qanuni əsaslarla xitam verilib. Bununla yanaşı konkret korrupsiya faktı üzrə araşdırma materiallarının hüquqi qiymət verilməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilməsi məqsədəmüvafiq bilinib.

Ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində məhkəmə sisteminin yüksək hazırlığa və mənəvi keyfiyyət-

lərə malik hakimlər hesabına komplektləşdirilməsinə xüsusi diqqət yetirilir.

Məhkəmə-Hüquq Şurasının Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasında Ali və apellyasiya instansiyası məhkəmələrində vakant olan 30 hakim ştatının komplektləşdirilməsi məqsədilə hakim korpusunun mövcud tərkibi ətraflı təhlil edilib, fəaliyyətində müsbət qiymətləndirilən və peşəkarlığı ilə fərqlənən hakimlərin irəli çəkilməsinə dair dövlət başçısına təkliflər verilib.

Qeyd edilən təkliflər ölkə Prezidenti tərəfindən müsbət dəyərləndirilərək Milli Məclisə həmin namizədlərin təyinatı ilə bağlı təqdimat göndərilib.

Şurada həmçinin, bildirilib ki, 2013-cü ildə yeni qaydalarla seçilərək təyin olunmuş 71 nəfər hakimin ilkin səlahiyyət müddətinin bitməsi ilə əlaqədar onların hər birinin işi yerində öyrənilib, fəaliyyətlərini xarakterizə edən sənəd, material və məlumatlar toplanıb. Həmin hakimlərin fəaliyyəti qiymətləndirilməklə vəzifələrinin öhdəsindən layiqincə gələn şəxslərin səlahiyyət müddətlərinin uzadılmasına dair təkliflərin hazırlandığı vurğulanıb.

Eyni zamanda, şəffaf prosedurlarla seçilmiş, o cümlədən çoxmərhələli imtahanlarda müvəffəqiyyət qazanaraq hakim vəzifəsinə layiq bilinmiş 108 nəfər namizədlə bağlı Hakimlərin Seçki Komitəsinin təkliflərinə baxılıb, ixtisaslaşmalarının aparılması məqsədilə onların hər biri ilə fərdi qaydada söhbətlər keçirilib. Həmin namizədlərin birinci instansiya məhkəmələri üzrə müxtəlif hakim vəzifələrinə təyinatları barədə təkliflərin hazırlanması tapşırılıb.

Bildirilib ki, bu sahədə görülən tədbirlər nəticəsində məhkəmə sistemində mövcud olan bütün vakansiyaların tam əksəriyyəti, o cümlədən ilk dəfə olaraq Ali və bütün apellyasiya instansiyası məhkəmələri tam komplektləşdiriləcəkdir ki, bu da hakimlərin iş yükünün xeyli azalmasına, işlərə daha keyfiyyətlə baxılmasına və süründürməçilik hallarının aradan qaldırılmasına xidmət edəcəkdir.

İclasda qanunvericiliyin tələblərinin pozulmasına prinsipial münasibət göstərilərək 6 hakim barədə intizam icraatları başlanılıb.

# Ölkəmiz beynəlxalq antikorrupsiya mübarizəsində fəal iştirak edir

**Oktyabrın 15-16-da Xorvatiyanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyi çərçivəsində bu ölkənin Ədliyyə Nazirliyi tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) ilə əməkdaşlıqda "Korrupsiyanın qarşısının alınması üçün şəffaflığın və məsuliyyətin artırılması" mövzusunda yüksək səviyyəli konfrans keçirilib.**

Xorvatiyanın Şibenik şəhərində təşkil olunmuş konfransda Azərbaycanı ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Açılışda Avropa Şurasının Baş katibi Torbyorn Yaqland, GRECO-nun sədri Marin Mrcela və Xorvatiyanın ədliyyə naziri Drajen Bosnyakoviç giriş sözü ilə çıxış ediblər.

Konfrans çərçivəsində "Korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi" adlı ayrıca keçirilmiş ədliyyə nazirlərinin sessiyasında çıxış edən respublikamızın ədliyyə naziri ölkə Prezidenti cənab İlham Əliyevin qəti siyasi iradəsi ilə aparılan qanunvericilik və institusional tədbirləri, antikorrupsiya strategiyasının uğurla həyata keçirilməsini və bu işdə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının və Baş prokuror yanında geniş səlahiyyətlərə malik antikorrupsiya idarəsinin səmərəli fəaliyyətini vurğulayıb.

Həmçinin Azərbaycan brendi olan ASAN xidmətin yüksək vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti, beynəlxalq antikorrupsiya əməkdaşlığı və treninqləri, o cümlədən ölkəmizin Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası və Beynəlxalq Antikorrupsiya Akademiyası ilə səmərəli əlaqələri vurğulanıb, antikorrupsiya əməkdaşlığının



genişləndirilməsinə dair bir sıra təkliflər irəli sürülüb.

Çıxışda tədbir iştirakçılarının diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə, Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğalı və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb olunub.

Eyni zamanda, tədbirdə panel sessiyalar keçirilərək hüquq-mühafizə orqanlarında korrupsiyanın qarşısının alınması, şəffaflığın təmin olunması və digər bu kimi aktual məsələlər müzakirə olunub.

Yekunda antikorrupsiya orqanlarının şəbəkəsinin yaradılması ilə bağlı beynəlxalq səylərin artırılmasına dair Bəyannamə qəbul edilib.

Konfrans çərçivəsində, həmçinin Avropa Şurasının Baş katibi və digər mötəbər beynəlxalq təşkilatların rəhbərləri ilə fikir mübadiləsi aparılıb, Xorvatiyanın və bir sıra dövlətlərin ədliyyə nazirləri ilə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Tədbirlərdə Azərbaycanın Xorvatiyadakı səfiri Fəxrəddin Qurbanov iştirak edib.

## Xorvatiyanın Şibenik şəhərində keçirilmiş konfrans çərçivəsində ədliyyə nazirlərinin "Korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi" adlı ayrıca sessiyasında Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun çıxışı

Əziz həmkarlar,

İlk növbədə, belə bir aktual mövzuya həsr olunmuş konfransın yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə xorvatiyalı ev sahiblərinə minnətdarlığımı bildirirəm.

Məlumdur ki, korrupsiya inkişafa mane olur, bərabərsizliyi və ədalətsizliyi dərinləşdirir. Təsadüfi deyil ki, demokratiya və qanunun aliliyi yolunda problemlərə sədd çəkən korrupsiyaya qarşı mübarizə Avropa Şurası üçün ən əhəmiyyətli məsələdir.

Bu bəla ilə səmərəli mübarizə aparmaq üçün güclü siyasi iradə ilə yanaşı, təsirli beynəlxalq vasitələr və mexanizmlər tələb olunur.

Azərbaycanın da qoşulduğu BMT-nin və Avropa Şurasının Korrupsiyaya qarşı konvensiyalarının səmərəliliyi heç birimizdə şübhə doğurmur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin qəti iradəsi sayəsində Antikorrupsiya Strategiyasının və Açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Planının səmərəli icrasına nail olunmuşdur. Burada hakimiyyətin hər 3 qolunun təmsil olunduğu Korrupsiyaya qarşı mübarizə üzrə komissiya

və Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə baş idarəsi mühüm rol oynayır. İdarə ən geniş səlahiyyətlərə və əməliyyatçılardan, iqtisadçılardan və digər mütəxəssislərdən ibarət geniş işçi heyətə malikdir ki, bu da onun fəaliyyətinin səmərəliliyinə kömək edir.

Həmçinin, göstərdiyi köməyə görə GRECO-ya minnətdarıq. Onun tövsiyələri sayəsində qanunvericiliyimiz və antikorrupsiya təcrübəmiz təkmilləşdirilmişdir.

Bütün bunlar ölkəmizin rəqabətqabiliyyətliliyini yaxşılaşdırmaqla dünyada 35-ci yerə yüksəlməyə, xalqın iqtidara dəstəyinə görə dünya miqyasında 20-ci yerə nail olmağa və korrupsiyaya qarşı indeksləri yüksəltməyə imkan vermişdir.

Yeri gəlmişkən, ölkəmizin *know how* olan və artıq Azərbaycan brendinə çevrilən ASAN xidmət təcrübəsi ilə bölüşmək istərdim. Bu quruma vətəndaş məmnuniyyətinin 98 faizə bərabər olması xidmətin faktiki olaraq məişət korrupsiyasına son qoymasının əyani göstəricisidir. Fəaliyyət göstərdiyi 5 il yarım ərzində bu xidmətə 10 milyon əhalisi olan ölkədə 24 milyon müraciət edilmişdir. "Bir qapı" prinsipi ilə vahid binada 40 qurum tərəfindən 320 müxtəlif, o cümlədən elektron xidmətlər göstərilir. Həmçinin ASAN xidmətin əməkdaşları avtobuslarla və qatarla ölkə üzrə səyyar xidmətlər göstərirlər.

Lakin bu bəla ilə tək mübarizə aparılmasının mümkünsüzlüyü nəzərə alınaraq Azərbaycan beynəlxalq əməkdaşlığın genişlənməsini fəal təşviq edir.




Təsadüfi deyil ki, ölkəmiz 140 ölkəni birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) həmtəsisçisi və fəal iştirakçısıdır. Bu "platforma" BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Ofisi (UNODC), Avropa Komissiyasının Dələduzluqla Mübarizə Ofisi (OLAF), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) və digər müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyə şərait yaradır.

Eyni zamanda, Azərbaycan dəyərli ev sahiblərimiz olan Xorvatiya ilə yanaşı, dünya prokurorlarının yeganə təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsində təmsil olunur və Azərbaycan özü IAP-ın prokurorlar üçün antikorrupsiya internet şəbəkəsini aparır, bu da müsbət təcrübələrin mübadiləsinə, treninqlər və vebinarların təşkilinə imkan verir.

Treninqlərin əhəmiyyətli rolu nəzərə alınaraq Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) ilə səmərəli əlaqələr qurulmuş və Əməkdaşlıq haqqında Memorandum imzalanmışdır. Ölkəmiz həmçinin bir il müddətində onun Assambleyasında sədrliyi həyata keçirmiş, hazırda da rəhbərliyində təmsil olunur. Biz IACA-nın magistraturasında və yay məktəblərində təhsil almış məzunlarımızın yüksək bilik səviyyəsinə yiyələnməsinin şahidi olmuşuq, onlar artıq antikorrupsiya sahəsində uğurlu təlimçilərə çevrilmişlər.

Azərbaycan həmçinin, Avropadan kənarda da Honkonq, Sinqapur və Malayziyadan olan korrupsiyaya qarşı ən qabaqcıl orqanlarla ikitərəfli səmərəli əməkdaşlıq edir və ölkəmizin antikorrupsiya təcrübəsi nəinki Avropa məkanında, həmçinin Afrika, Asiya, eləcə də Okeaniyada da geniş maraq doğurmuşdur.

Korrupsiyaya qarşı məhsuldar mübarizə üçün ekstradisiya və hüquqi yardım sahəsində əməkdaşlıq da mühüm əhəmiyyət kəsb edir. Azərbaycan universal və regional konven-

siyalardan irəli gələn vəzifələri vicdanla yerinə yetirməklə kifayətlənməyərək ekstradisiya və hüquqi yardım haqqında xüsusi qanunlar qəbul etmişdir ki, bunlar da xarici tərəfdaşlarımızla müqavilə olmadan belə əməkdaşlıq etməyə imkan verir. Bu korrupsionerlərin özünü təhlükəsizlikdə hiss etmələrinin qarşısını alan çox böyük təsirə malik əlavə mexanizmdir. Lakin bəzən təcrübədə razılaşma mövcud olduğu halda belə, bəzi ölkələr tərəfindən əsaslandırılmış sorğularımızın cavablandırılmaması, hərəkətsizliyi və laqeydliyi ilə üzləşirik ki, bu da korrupsionerlərin cəzalandırılmamasına gətirib çıxarır. Nümunə gətirmək istəmirəm, əminəm ki, həmkarlarımın çoxu belə hallarla qarşılamışdır.

Təəssüf ki, bizim əməkdaşlığımız BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə və beynəlxalq təşkilatların digər qərarlarına məhəl qoymayan Ermənistanın hələ də işğal altında saxladığı Azərbaycanın 20% torpaqlarını əhatə edə bilmir. İşğal nəticəsində 1 milyon qaçqın və məcburi köçkün yaranmış, 500-dən çox tarixi və mədəni abidələrimiz dağıdılaraq məhv edilmişdir.

Hörmətli həmkarlar, sonda isə bir neçə təklif irəli sürmək istərdim:

- Bu günkü kimi, Avropa qitəsindən kənara çıxaraq korrupsiyaya qarşı mübarizədə ən yaxşı təcrübələri daha aktiv şəkildə bölüşmək;

- Ekstradisiya və hüquqi yardım sahələrində beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılması üçün Koordinasiya mərkəzi yaratmaq;

- Əvvəldə qeyd olunan və digər aparıcı institutların potensialından istifadə etməklə qlobal səviyyədə antikorrupsiya tədrisini yüksəltmək.

Əminəm ki, göstərilən istiqamətlərdə işi davam etdirməklə biz müsbət nəticələr əldə edə bilərik.

*Diqqətinizə görə minnətdaram.*

# Notariat sahəsində islahatlara beynəlxalq maraq artır

**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafı üzrə aparılan islahatlar çərçivəsində notariat orqanlarının fəaliyyəti təkmilləşdirilir, səlahiyyətləri genişləndirilir. Beynəlxalq təcrübəyə uyğun olaraq xüsusi notariat institutu yaradılaraq geniş tətbiq olunur, həmçinin notariat kontorlarını vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi istifadəyə verilib ki, bununla da notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli sadələşdirilib.**

Bu sahədə bir çox dövlətlər tərəfindən müsbət təcrübəmizdən bəhrələnilir və bu məqsədlə müxtəlif aktual mövzularda beynəlxalq konfranslar, seminarlar keçirilir.

Azərbaycan Ədliyyəsinin 100 illiyi ərəfəsində Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Bakıda "Daşınmaz əmlakla bağlı əqdlər: rəqəmsallaşma və notariat üçün yeni perspektivlər" mövzusunda iki günlük beynəlxalq elmi-praktiki konfrans təşkil olunub.

Rusiya Federal Notarial Palatası prezidentinin, Belarus və Qazaxıstan notariat palataları sədrlərinin, Almaniyanın Qalle-Vittenberq Universiteti nümayəndələrinin, Ədliyyə Nazirliyinin və Əmlak Məsələləri Dövlət Komitəsinin məsul şəxslərinin, həmçinin Azərbaycan, Rusiya, Belarus və Qazaxıstanın notariuslarının iştirakı ilə keçirilən bu tədbirdə ədliyyə sahəsində əldə olunan nailiyyətlər, müasir ədliyyənin tətbiq etdiyi innovativ mexanizmlər, o cümlədən vətəndaş məmnunluğunun təmin edilməsinə yönəlmiş xidmətlərin çevikliyinin və rahatlığının artırılması üzrə görülmüş tədbirlər qeyd edilib.

Konfransda əşya hüququna dair Almaniya qanunvericiliyinin xüsusiyyətləri, ölkəmizdə daşınmaz əmlakla bağlı əqdlərin rəsmiləşdirilməsinin hüquqi aspektləri, elektron notariat informasiya sistemlərinin imkanları barədə ətraflı məlumat verilib, təqdimatlar keçirilib.

Səfər zamanı ədliyyə naziri Fikrət Məmmədov Rusiya Federal Notariat Palatasının prezidenti Konstantin Korsik, Belarus notariat palatasının sədri Nataliya Borisenko və Qazaxıstan notariat palatasının sədri Asel Janabilova ilə görüşüb.



Dövlətlərimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafını qeyd edən nazir ölkələrimizin Ədliyyə nazirliklərinin səmərəli əməkdaşlığından məmnunluğunu ifadə edib, ədliyyə, o cümlədən notariat sistemində aparılan islahatlara toxunaraq, qarşılıqlı fəaliyyətin genişləndirilməsi və müsbət təcrübələrin mübadiləsi üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Nümayəndə heyəti ilə Ədliyyə Nazirliyində notariusların beynəlxalq əlaqələrinin genişləndirilməsi, onların tədrisinin səmərəli təşkili, yaxşı təcrübələrin bölüşülməsi ilə bağlı müzakirələr keçirilib, ədliyyə nazirinin müavini Toğrul Musayev ilə bu sahədə islahatlara, qarşılıqlı fəaliyyətin prioritetlərinə dair faydalı fikir mübadiləsi aparılıb, notariuslarla keçirilən beynəlxalq seminarın əhəmiyyəti qeyd olunub.

Qonaqların diqqəti həmçinin, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə, Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğalı, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb edilib.

Notariat palatalarının rəhbərləri ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsini qeyd edib, respublikamıza səfərlərindən məmnunluqlarını bildirib, Azərbaycanda notariat institutunun inkişafına dövlətin diqqətini, vətəndaşların notariat xidmətlərinə əlçatanlığının asanlaşdırılması, məmnunluğun yüksəldilməsi ilə bağlı görülən tədbirləri, müasir İKT-lərin, o cümlədən elektron notariatın tətbiqini təqdir edib, ölkəmizin bu sahədə nailiyyətlərini nəzərə alaraq MDB çərçivəsində notariuslar üçün Bakıda tədris mərkəzinin yaradılması ilə bağlı niyyətini ifadə ediblər. Həmçinin demokratik cəmiyyətlərdə Ədliyyə Nazirliyinin mühüm rol oynadığını qeyd edərək Azərbaycan Ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıblar.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Səfər zamanı nümayəndə heyəti, həmçinin Azərbaycan brendi olan və notariat orqanlarının da fəaliyyət göstərdiyi "ASAN xidmət" mərkəzinin vətəndaş məmnunluğunu təmin edən çoxşaxəli fəaliyyəti, eləcə də paytaxtın tarixi-mədəni abidələri ilə tanış olublar.



# Belarus Vəkillər Kollegiyasının sədri ilə Ədliyyə Nazirliyində görüş




**Ədliyyə nazirinin müavini Toğrul Musayev Azərbaycanda səfərdə olan Belarus Respublikası Vəkillər Kollegiyasının sədri, ölkə parlamentinin üzvü Viktor Çayçits ilə görüşüb.**

Dövlətlərimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərini qeyd edən nazir müavini bu əlaqələrin inkişafında Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun xüsusi rolunu vurğulayıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərin beynəlxalq hüquq çərçivəsində həllində Belarus dövlətinin hər zaman ədalətli və prinsipial mövqe nümayiş etdirdiyini bildirib.

Həmçinin, ötən il Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair yeni Sazişin imzalanmasının, yüksək səviyyədə səfərlərin və nümayəndə heyətlərinin mübadiləsinin hüquqi sahədə qarşılıqlı fəaliyyətə mühüm töhfə verdiyi vurğulanıb, vəkillik təsisatının islahatından bəhs edilib, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı dövlət başçısının 2018-ci il 22 fevral tarixli Sərəncamının xüsusi əhəmiyyəti qeyd olunub.

Azərbaycana səfərindən məmnunluğunu bildirən qonaq xalqlarımız arasında əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayıb, vətəndaşların hüquqlarının qorunmasına xidmət edən Vəkillər kollegiyaları arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edib. V.Çayçits vəkillik institutunun inkişafı üzrə görülən tədbirlərə maraq göstərərək bu sahədə Azərbaycan təcrübəsindən istifadə etmək barədə niyyətini ifadə edib.

Görüşdə səfər zamanı iki qurum arasında sənədin imzalanmasının qarşılıqlı fəaliyyətin inkişafına təkan verəcəyi bildirilib, vəkilliyin inkişafı, vəkillərin seçim proseduru və Ədliyyə Akademiyasında təlimi, əhaliyə keyfiyyətli hüquqi yardımın göstərilməsi ilə bağlı faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Tədbirdə Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov iştirak edib.

Qonaqlar nazirlikdə bu il 100 illiyi qeyd olunan Azərbaycan Ədliyyəsinin tarixi muzeyi ilə tanış olublar.

# Azərbaycan və Belarus Respublikası arasında hüquqi əməkdaşlıq davam edir






**Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq əlaqələri ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra möhkəmlənib, 1993-cü ildə iki ölkə arasındakı səmimilik, dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan diplomatik münasibətlər qurulub.**

Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu ənənə getdikcə möhkəmlənərək ikitərəfli qarşılıqlı fəaliyyət potensialını daha da gücləndirib.

Dövlət başçılarının müntəzəm görüşlərinin nəticəsi olaraq ikitərəfli münasibətlərin inkişafı istiqamətində bir sıra mühüm məsələlərin həlli yolları müzakirə edilib, müvafiq qərarlar qəbul olunub, uzunmüddətli sosial-iqtisadi əməkdaşlığa dair xüsusi önəm daşıyan müqavilələr imzalanıb.

Azərbaycan və Belarus arasındakı ikitərəfli əlaqələr bütün fəaliyyət istiqamətlərində, o cümlədən hüquqi sahədə də öz əksini tapıb. Təsadüfi deyil ki, hazırda ölkələrimizin Ədliyyə nazirlikləri arasında, həmçinin penitensiar sahədə əməkdaşlığa dair imzalanmış sazişlər uğurla icra olunur, təcrübə mübadiləsi aparılır və qarşılıqlı hüquqi yardım həyata keçirilir.

Əməkdaşlığın genişləndirilməsi çərçivəsində oktyabrın 23-27-də Azərbaycanın ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Ceyhun Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Belarusda səfərdə olub.

Səfər zamanı Belarus Respublikası Daxili İşlər Nazirliyi Cəzaların İcrası Departamentinin rəisi Oleq Matkin ilə keçirilmiş görüşdə ikitərəfli əməkdaşlıq münasibətlərinin dərinləşməsi, təcrübə mübadiləsinin genişlənməsi məqsədilə gələcəkdə bu cür qarşılıqlı səfərlərin təşkili müzakirə olunub.

Xalqlarımız və ölkələrimiz arasında tarixi dostluq, eləcə də prezidentlərimizin səmimi münasibətləri fonunda hər iki ölkənin cəza icra orqanları arasında əlaqələrin möhkəmləndirilməsi üçün mövcud olan imkanlardan tam olaraq istifadə edilməsinin zəruriliyi xüsusilə vurğulanıb.

Nazir müavini C.Həsənov ölkəmizin davamlı sosial-iqtisadi tərəqqisi, ölkə başçısının penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 10 fevral 2017-ci il tarixli proqram xarakterli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı görülmüş işlər barədə ətraflı məlumat verib, 100 illiyi qeyd olunan Azərbaycan ədliyyəsinin tarixindən və müasir fəaliyyətindən bəhs edib.

Səfər çərçivəsində, həmçinin Belarus Milli Kitabxanasının dövlət binasında Daxili İşlər Nazirliyinin Minsk şəhər İcra Komitəsi Baş idarəsinin rəisi S.İ.Doroşko ilə görüş keçirilib.

Eyni zamanda Belarusun bir neçə cəzaçəkmə müəssisəsinə və istintaq təcridxanasına baş çəkilərək, məhkum və həbs

edilmiş şəxslərin saxlanma şəraiti, müəssisələrdə aparılan yenidənqurma işləri, informasiya-kommunikasiya vasitələrinin imkanlarından istifadə, müəssisələrdə yaradılmış istehsal şəraiti və prosesi ilə tanış olunub.

Bundan əlavə, nümayəndə heyəti "Belavejskaya puşşa" Milli parkı, "Brest qəhrəman qala" Memorial kompleksi, müasir və yeni texnologiyalar tətbiq olunmaqla inşa edilmiş Belarus Milli Kitabxanası, Böyük Vətən Müharibəsi Muzeyi və digər tarixi abidələrlə tanış olub.

# Qlobal Fond nümayəndələri ilə Penitensiar xidmətdə görüş





**Oktyabrın 4-də İİV/QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun əməkdaşları ilə Penitensiar xidmətdə görüş keçirilib.**

Qonaqları salamlayan ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov qeyd edib ki, yarandığı gündən Qlobal Fondun fəaliyyət göstərdiyi 150-dən çox ölkə ilə əməkdaşlıq nəticəsində 27 milyon insan həyatını xəstəliklərdən xilas etməsi böyük göstəricidir.

Ölkəmizin vərəm əleyhinə mübarizə və digər sahələrdə Qlobal Fondla əməkdaşlığı nəticəsində əldə olunmuş müsbət nəticələrin yüksək qiymətləndirildiyi, Dünya miqyaslı beynəlxalq təşkilatlarla həyata keçirilən birgə layihələrin və qabaqcıl təcrübənin tətbiqi nəticəsində penitensiar müəssisələrdə vərəm xəstəliyindən ölənlərin sayının yüz dəfədən çox azalmasının müsbət hal olduğu vurğulanıb.

Nazir müavini istintaq təcridxanaları və cəzaçəkmə müəssisələrində narkotik maddələrin zərəri ilə bağlı fərdi profilaktika, maarifləndirmə işinin aparılması barədə qonaqlara müfəssəl məlumat verib.

Qeyd edilib ki, xidmət əməkdaşları üçün yerli və beynəlxalq təşkilatlar tərəfindən müvafiq seminar-treninqlər təşkil olunur, bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinə xüsusi önəm verilir. Eyni zamanda "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi haqqında" Qanunun ayrı-ayrı müddəaları Fond nümayəndələrinin diqqətinə çatdırılıb.

Qlobal Fondun meneceri Olqa Avdeyeva respublikamızın vərəmlə mübarizədə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib, ölkəmizin bu sahədə beynəlxalq təşkilatlarla, o cümlədən təmsil etdiyi qurumla əməkdaşlığını təqdirəlayiq hal olduğunu qeyd edib.

Vərəmlə mübarizədə Azərbaycanın tətbiq etdiyi müsbət təcrübənin dünyada daha geniş yayılmasının önəmini bildirən qonaq Qlobal Fond və Azərbaycan arasında səmərəli əlaqələrin bundan sonra da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə "Opioidlərlə əvəzedici müalicə"nin penitensiar müəssisələrdə tətbiqi imkanları müzakirə edilib, Fond nümayəndələrinə bu müalicə üsulunun tətbiqinin beynəlxalq təcrübənin öyrənilməsindən və qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsindən sonra mümkün olduğu bildirilib, geniş fikir mübadiləsi aparılıb.

Tədbirdə Ədliyyə və Səhiyyə Nazirliklərinin məsul əməkdaşları iştirak ediblər.

# Probasiya institutunun tətbiqində Azərbaycanın təcrübəsinə maraq göstərilir

**Ölkə Prezidenti cənab İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamına uyğun olaraq azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasının səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər görülür, bu məqsədlə Ədliyyə Nazirliyində yeni Probasiya xidməti yaradılıb, həmin cəzaların icrasında müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə olunmaqla elektron nəzarət vasitələrinin tətbiqinə başlanılıb. Həmçinin Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Elektron monitorinq mərkəzi fəaliyyət göstərir.**

Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş, məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum olunmuş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə elektron qolbaqların tətbiq olunması həmin cəzaların effektiv icrasına nəzarətin təşkilinə imkan yaradır. Artıq 230-dan çox məhkum elektron qolbaq daşıyır ki, onlar müvafiq cəzalarını çəkirlər və Elektron monitorinq mərkəzi tərəfindən onlara fasiləsiz təsirli nəzarət həyata keçirilir.




Həmin mərkəzin ictimaiyyət üçün geniş təqdimatı keçirilib, həmçinin məhkəmə sədrləri və hakimlər onun fəaliyyəti, elektron qolbaqların praktikada tətbiqi ilə tanış olublar.

Dövlət başçısının qəti siyasi iradəsi sayəsində qısa müddətdə ölkəmizdə probasiya institutunun tətbiqinə nail olunub və artıq bu sahədə Azərbaycanın təcrübəsinə digər dövlətlər tərəfindən maraq göstərilir.

Birləşmiş Ərəb Əmirlikləri-nin Baş Polis idarəsinin təşəbbüsü ilə bu ölkənin məsul nümayəndəsi məhkumlara elektron nəzarət vasitələrinin tətbiqi təcrübəsini öyrənmək məqsədi ilə ölkəmizə səfər edib, Ədliyyə Nazirliyi Probasiya xidmətinin Elektron monitorinq mərkəzinin fəaliyyəti ilə tanış olub.

Tanışlıq zamanı qonağa elektron nəzarət vasitələrinin texniki xüsusiyyətləri, monitorinq sistemi vasitəsilə əlaqə yaradılmaqla məhkumların izlənilməsi prosesi, onların üzərinə qoyulmuş məhdudiyyətlərin sistemdə əks olunması, mərkəzdə növbətçiliyin təşkili ilə bağlı ətraflı məlumat verilib, elektron nəzarət qurğuları, o cümlədən elektron qolbaqlar əyani nümayiş etdirilib, təqdimat keçirilib.

Probasiya xidmətinin fəaliyyəti barədə məlumatları böyük maraqla qarşılayan qonaq gələcəkdə bu sahədə Azərbaycanın təcrübəsindən faydalanmaq məqsədi ilə Birləşmiş Ərəb Əmirlikləri Baş Polis idarəsinin nümayəndə heyətinin ölkəmizə səfər etmək niyyətində olduğunu bildirib.

# Azərbaycan ədliyyəsinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər

## Ədliyyə Nazirliyində "açıq qapı" günü





**Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdiyi 2018-ci il həm də Azərbaycan ədliyyəsinin 100 illiyi ilə əlamətdardır.**

Yubiley tədbirləri çərçivəsində nazirliyin məsul işçilərinin, xarici dövlətlərin ölkəmizdəki səfirliklərinin, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyətinin və media nümayəndələrinin iştirakı ilə oktyabrın 23-də Ədliyyə Nazirliyinin elektron sistemlərinin, informasiya resurslarının və ədliyyə sahəsində əhaliyə göstərilən elektron xidmətlərin təqdimatına həsr olunmuş "açıq qapı" günü keçirilib.

Bildirilib ki, Azərbaycan ədliyyəsi ölkəmizin hərtərəfli inkişafına uyğun olaraq islahatlar aparılmaqla təkmilləşir və müasirləşir, ədliyyə orqanlarının fəaliyyətində şəffaflığın artırılması, açıq hökumət prinsiplərinin təşviqi, vətəndaş məmnunluğunun yüksəldilməsi, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı mühüm tədbirlər həyata keçirilir.

Həmçinin ədliyyə sahəsindəki yeniliklərdən bəhs olunaraq nazirlik tərəfindən aparılan 14 informasiya sistemi və onların funksiyaları, 22 dövlət orqanının 30-dan çox informasiya resursu ilə inteqrasiyası, ədliyyə fəaliyyəti ilə bağlı əhaliyə göstərilən 31 elektron xidmətdən istifadələrin sayının ötən dövrdə 11 milyonu ötməsi barədə məlumat verilib.

Tədbir iştirakçıları vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti üçün əlverişli mühitin yaradılması, ictimai iştirakçılığın genişləndirilməsi, qeyri-hökumət təşkilatlarının "Fərdi elektron pəncərə" elektron məlumat sistemi və bu sahədə tətbiq olunan yeniliklərlə tanış olublar.

Eyni zamanda vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, ailə institutunun möhkəmləndirilməsi ilə bağlı qeydiyyat şöbələrində QHT-lərin dəstəyi ilə psixoloqlar cəlb edilməklə mediasiya xidmətinin göstərilməsi, həmçinin notariat kontorlarını vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sisteminin tətbiqi maraqla qarşılanıb. Notariat sənədlərinin həqiqiliyinin yoxlanılması üçün sistem, elektron apostil, notariat arxivinin elektronlaşdırılması kimi innovativ layihələrin təqdimatı keçirilib, səyyar qaydada notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün zəruri avadanlıqların kompakt şəkildə yerləşdirildiyi xüsusi elektron

çantalar nümayiş olunub.

İctimai xidmətlərin müasir modeli olan Azərbaycan brendi "ASAN xidmət" çərçivəsində, həmçinin notariat və qeydiyyat sahəsində əhaliyə səmərəli xidmətlər göstərildiyi qeyd edilərək, həmin mərkəzlərdə verilən sənədlərin böyük hissəsinin ədliyyə qurumlarının payına düşməsi vurğulanıb.

Vətəndaş cəmiyyətinin nümayəndələri çıxış edərək ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirləri yaxından izlədiklərini, tətbiq olunan elektron və informasiya sistemlərinin, e-xidmətlərin ədliyyə qurumlarına əlçatanlığın asanlaşmasına, həmçinin digər dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyətin səmərəliliyinə xidmət etdiyini vurğulayıblar.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, faydalı diskussiya keçirilərək fikir mübadiləsi aparılıb.

# Ədliyyə Akademiyasında iqtisadiyyatın inkişafında hüququn roluna dair beynəlxalq konfrans keçirilib





**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan hərtərəfli islahatlar nəticəsində respublikamızın davamlı sosial-iqtisadi tərəqqisi təmin edilir, bir sıra qlobal enerji və nəqliyyat layihələri uğurla həyata keçirilir, Azərbaycan iqtisadi rəqabətqabiliyyətliliyinə görə dünyada qabaqcıl ölkələr sırasında yüksək pillələrdə qərarlaşmaqla islahatçı dövlət kimi tanınır. Həmçinin iqtisadi qanunvericiliyin inkişafı, bu sahədə qanunçuluğun möhkəmləndirilməsi, iqtisadi və sosial sferalarda hüquqi təminat məsələləri daim diqqətdə saxlanılır.**

Bu məqsədlə oktyabrın 24-25-də Ədliyyə Akademiyasında "İnkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın inkişafında hüququn rolu" mövzusuna həsr olunmuş beynəlxalq konfrans keçirilib.

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində təşkil olunan tədbirdə bir sıra xarici dövlətlərdən, o cümlədən Türkiyə, Almaniya, Litva, Gürcüstan və Moldovadan olan beynəlxalq ekspertlər, alimlər, hüquqşünaslar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransın açılışında Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xəlәfov milli iqtisadiyyatın inkişafı sahəsində qanunvericiliyin rolundan, xüsusilə son dövrlər qeyri-neft iqtisadiyyatının genişləndirilməsi ilə bağlı hüquqi əhəmiyyətli yeniliklərdən, sahibkarlıq fəaliyyəti, istehlakçıların hüquqlarının qorunması və xarici investisiyaların təşviqindən danışıb, ölkəmizin davamlı inkişafı, mühüm iqtisadi göstəriciləri barədə ətraflı məlumat verib, konfransın

işinə uğurlar arzulayıb.

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Sonia Fontaine ölkəmizdə müasir qanunvericilik bazasının mövcud olduğunu, məhkəmə-hüquq sahəsində səmərəli əməkdaşlıq etdiklərini vurğulayıb, Azərbaycanda iqtisadi və hüquqi sahədə həyata keçirilən islahatları yaxından izlədiklərini və dəstəklədiklərini bildirib.

Sonra konfrans öz işini panel sessiyalarda davam etdirib, yerli və xarici ekspertlər tərəfindən ölkəmizdə həyata keçirilən irimiqyaslı iqtisadi, vergi, ekoloji, sosial layihələrin və proqramların hüquqi təminat məsələlərinə, milli və beynəlxalq qanunvericilik aspektinə toxunulub, iqtisadi qanunvericiliyin inkişafı, mübahisələrin alternativ həlli mexanizmləri, mediasiya, məhkəmələrdə baxılan işlərin səmərəliliyinin təmin edilməsində informasiya texnologiyalarının rolu, istehlak hüququnun ümumi aspektləri, sahibkarlıq hüququ və s. mövzularda çıxışlar edilib, müqayisəli hüquqi təhlillər aparılıb, diskussiyalar keçirilib.

# Respublikanın ali və orta təhsil müəssisələrində açıq dərslər

**Azərbaycan ədliyyəsinin 100 illik yubileyi və "Avropa Ədliyyə Günü" münasibəti ilə oktyabrın 22-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialında müəllim və tələbə heyəti ilə geniş görüş keçirilib.**



Görüşdə Şəki Apellyasiya Məhkəməsinin sədri və rayonda fəaliyyət göstərən regional və yerli ədliyyə qurumlarının rəhbərləri və əməkdaşları iştirak ediblər.

Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov ölkəmizin məhkəmə sistemi, bu sahədə həyata keçirilən mütərəqqi islahatlar və Azərbaycan məhkəmələrinin Avropa Şurasının müvafiq qurumları ilə əməkdaşlığı, habelə ədalət mühakiməsinin səmərəliliyinin yüksəlməsinə yönələn lahiyələrdə iştirakı barədə ətraflı məlumat verib.



Şəki regional ədliyyə idarəsinin rəisi Rəhman Məmmədov tədbirin mahiyyəti və keçirilən silsilə tədbirlər barədə söhbət açıb. Sonra "Azərbaycan ədliyyəsinin tarixi" və "Müasir Azərbaycan ədliyyəsi" mövzularında məruzələr din-

lənilib.

Həmçinin, Ədliyyə Nazirliyi tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin təqdimatı keçirilərək həmin xidmətlərin mahiyyəti və funksiyası barədə ətraflı məlumat verilib, ondan istifadə qaydası izah olunub.

Daha sonra tədbir tələbələrin maraq doğuran sualları ətrafında fikir mübadiləsi ilə davam etdirilib.

Müəllim və tələbələr çıxışlarında bu kimi tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd edərək minnətdarlıqlarını ifadə ediblər.

**Yubiley tədbirləri çərçivəsində, həmçinin cari ilin oktyabr ayında ali təhsil müəssisələrində hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün, habelə Bakı şəhərində və regionlarda orta məktəblərin 11-ci siniflərində ədliyyə tarixi ilə bağlı mühazirələr və açıq dərslər təşkil edilib.**













Bakı Dövlət Universitetində, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında və Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyasında keçirilmiş tədbirlərdə əsası 1918-ci ildə qoyulmuş Azərbaycan ədliyyəsinin tarixinə aid mühazirələr və Ədliyyə Nazirliyinin göstərdiyi elektron xidmətlər barədə təqdimatlar hüquq fakültəsinin tələbələrinin diqqətinə çatdırılıb.

Naxçıvan Dövlət Universitetinin tələbələri də həmçinin, Muxtar Respublikanın Ədliyyə Nazirliyinin fəaliyyəti ilə tanış olub, ədliyyənin bir əsrlik tarixi və müasir fəaliyyəti barədə mühazirə dinləyiblər.

Həmçinin Xaçmaz, Şirvan, Şəki, Gəncə, Şəmkir, Sumqayıt, Bərdə, Göyçay, Lənkəran və İmişli regional ədliyyə idarələri tərəfindən müvafiq regionların orta təhsil müəssisələrində silsilə açıq dərslər təşkil olunub.

Tədbirlərdə çoxəsrlik dövlətçilik tariximizin parlaq səhifələrindən olan və bu il 100 illiyini geniş qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyətindən, cümhuriyyətimizlə eyni gündə təsis olunan Azərbaycan ədliyyəsinin şanlı tarixindən, xalqımızın ümummilli lideri Heydər Əliyevin qayğısı ilə təkmil bir struktur kimi formalaşaraq davamlı inkişaf yoluna qədəm qoymasından, ölkə Prezidenri cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə aparılan ardıcıl islahatlardan bəhs edilib, dövlətin hüquq siyasətinin həyata keçirilməsində mühüm rolu vurğulanıb.

Tələbələr və şagirdlər ədliyyənin tarixi və fəaliyyət istiqamətləri üzrə məlumatları maraqla dinləyib, onların mövzu ilə bağlı sualları ətraflı cavablandırılıb.

# Avropa Ədliyyə Günü məhkəmələrdə qeyd olunub




**Avropa Ədliyyə Günü hər il 25 oktyabr ərəfəsində qeyd olunur. Onun məqsədi əhalinin ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılmasından, Avropa Şurasının və Avropa Komissiyasının ədliyyə sahəsində işini təşviq etməkdən ibarətdir.**

Üzv-ölkələr tərəfindən “Avropa Ədliyyə Günü” münasibətilə məhkəmələrdə ictimaiyyət üçün "açıq qapı"lar keçirilir.

Oktyabrın 25-də Azərbaycanda da bütün məhkəmələrdə "açıq qapı"lar keçirilərək vətəndaşlar ədalət mühakiməsinin həyata keçirilməsi sistemi ilə yaxından tanış edilib, ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatları, o cümlədən ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, vətəndaşların müraciət imkanlarının genişləndirilməsi, məhkəmə infrastrukturunun müasirləşdirilməsi, müasir informasiya kommunikasiya texnologiyalarının və elektron sistemlərin tətbiqi və digər yeniliklər barədə məlumatlandırılıb, onlara hüquqlarının müdafiəsi mexanizmləri və s. barədə izahlar verilib.

Həmçinin kollektivlərdə bu mövzuda söhbətlər aparılıb, mətbuat səhifələrində çıxışlar, təhsil müəssisələrdə iclaslar və sair tədbirlər təşkil olunub, "Avropa Ədliyyə Günü"nün tarixi və əhəmiyyəti barədə ətraflı məlumat verilib.

Xatırladaq ki, ötən il Azərbaycan Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsində Məhkəmə-Hüquq Şurasının təqdim etdiyi "Məhkəmənin Nəbzi - İdarəetmədə İnqilab" layihəsi ilə iştirak edib və həmin layihə məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək qalib gəlmiş 4 layihə sırasına daxil edilib. "Avropa Ədliyyə Günü" ərəfəsində ənənəvi olaraq keçirilən "Ədliyyənin Kristal Tərəzisi" müsabiqənin mükafatlandırma mərasimində məhkəmə sisteminin elektron idarə olunması sahəsində ölkəmizin təcrübəsi təqdirəlayiq olduğu vurğulanıb və müvafiq mükafat təntənəli surətdə Azərbaycan tərəfinə təqdim olunub.

# Ölkəmizin nümayəndə heyəti Strasburqda regional konfransda iştirak edib

**Oktyabrın 18-19-da Fransanın Strasburq şəhərində Avropa Şurası və Avropa İttifaqının birgə "Yaxşı idarəçilik üzrə proqramı"nın "Altı Şərq Tərəfdaşları ölkəsində zorakılıq qurbanı olan qadınların ədliyyəyə çıxışının təkmilləşdirilməsi" adlı layihəsi çərçivəsində regional konfrans keçirilib.**

Tədbirdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Baş Prokurorluğun, Xarici İşlər Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məsul əmək-



daşları, habelə hakimlər və vəkillər iştirak ediblər.

Konfransa həmçinin, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna dövlətlərinin nümayəndə heyətləri, Böyük Britaniyanın, Polşanın, Fransanın, İspaniyanın və İsveçrənin gender bərabərliyi sahəsində ekspertləri qatılıblar.

Əsas məqsədi İstanbul Konvensiyasının standartlarının tətbiqi üzrə konkret tədbirlərin həyata keçirilməsi, qadınların ədalət mühakiməsinə çıxışını çətinləşdirən maneələrin aradan qaldırılması, qadın hüquqlarının müdafiəsi üçün vasitələrin müzakirəsi və müvafiq beynəlxalq təcrübənin öyrənilməsi olan tədbirin açılışında Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov giriş nitqi ilə çıxış edərək layihə çərçivəsində görülmüş işlər, o cümlədən ədalət mühakiməsinə çıxışın təkmilləşdirilməsi mövzusunda hakimlər və digər hüquqşünaslar üçün təlimlərin keçirilməsi və müvafiq metodiki vəsaitlərin hazırlanması barədə ətraflı məlumat verib.

Həmçinin ölkəmizdə gender sahəsində olan vəziyyət barədə məlumat təqdim edilib.

# Ədliyyə Akademiyasının məlumatları

**Ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə həyata keçirilən islahatlar çərçivəsində hakimlərin tədrisinə xüsusi diqqət yetirilərək, bu sahədə Avropanın ən mütərəqqi modellərindən istifadə edilir, hakimlərlə sorğular keçirilərək onların tədrisinə ehtiyac bildikləri sahələr və mövzular öyrənilməklə tədris proqramları hazırlanır və Ədliyyə Akademiyası tərəfindən, o cümlədən beynəlxalq təşkilatlarla birgə mütəmadi tədris tədbirləri təşkil olunur.**

Cari ilin oktyabr ayında Akademiyada hakimlər üçün "İnsan alveri və əlaqədar cinayət işlərinə məhkəmə qaydasında baxılması", "Mülki qanunvericiliyin tətbiqinin aktual məsələləri" mövzularında təlimlər keçirilib.

Ümumilikdə 55 hakimin iştirak etdiyi təlimlərdə hakimlərə insan alveri ilə bağlı işlər üzrə icraatın xüsusiyyətləri, insan alveri cinayətlərinin tövsifi, habelə əsassız varlanma - mülki hüququn və vəzifələrin əmələ gəlməsinin əsası kimi, torpaq sahələrinin mülkiyyətə



və icarəyə verilməsinin xüsusiyyətləri, ziyan vurma nəticəsində əmələ gələn öhdəliklər üzrə işlərə məhkəmələrdə baxılmasının, mənəvi zərər və onun ödənilməsinin xüsusiyyətləri, hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi barədə mühazirələr tədris olunub.

Eyni zamanda Beynəlxalq Miqrasiya Təşkilatı və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "Azərbaycanda insan alverinə qarşı mübarizə üzrə milli potensialın artırılması" layihəsi çərçivəsində bu sahədə cinayət təqibi orqanlarının müvafiq bilik və bacarıqlarının artırılması məqsədilə təlimçilər üçün təlim keçirilib.

Hakimlər, vəkillər, prokurorluq, Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş idarəsinin və Ədliyyə Akademiyasının əməkdaşlarının iştirak etdikləri təlimdə İnsan alveri layihələri üzrə əlaqələndirici Marija Nikolovska və Ədliyyə Akademiyasının Elmi-tədqiqat və doktorantura şöbəsinin rəisi Vüsal Əhmədov açılış nitqi ilə çıxış ediblər.

Kurs zamanı Beynəlxalq Miqrasiya Təşkilatının ekspertləri Aneta Arnaudovska və Ruslan Vəliyev, DİN Polis Leytenantı Fuad Əliyev, AİHM eksperti Mykolas Cerniauskas, Taras Şevçenko Universitetinin Hüquq Departamentinin professoru Andriy Orleanın təqdimatları dinlənilib.

Təlimdə insan alverinin beynəlxalq və milli səviyyədə kriminallaşdırılması, obyektiv və subyektiv elementləri arasında fərqin müəyyən edilməsinə aid beynəlxalq anlayışlar, yerli təcrübədə insan alveri üzrə beynəlxalq anlayışların tətbiqində yaranan problemlər, insan alveri qurbanları, prosessual və qeyri prosessual tədbirlər, dövlət, qeyri-hökumət və beynəlxalq təşkilatların rolu, prosessual tədbirlər, qanuni təmsilçilik, cinayət prosesində kompensasiya hüququ və digər hüquqlar, insan alveri insan hüquqlarının pozulması kimi (Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) təcrübəsi yanaşması) və AİHM-ə aid iddianın təqdim edilməsi, AİHM-in yerli məhkəmə təcrübəsində həyata keçirilməsi, insan alveri cinayətinin araşdırılması və təqibi, cinayətin aşkar edilməsində, sübutların toplanmasında və açıqlanmasında cinayət təqibi orqanlarının rolu və səlahiyyətləri və s. kimi məsələlər iştirakçıların diqqətinə çatdırılıb.

Bununla yanaşı, Avropa



Şurası və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" layihəsi çərçivəsində "Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsi (Azadlıq və toxunulmazlıq hüququ) mövzusunda təlim keçilib.

Birinci instansiya və apellyasiya məhkəməsi hakimlərinin iştirak etdiyi təlimdə azadlıq hüququnun anlayışı və əhəmiyyəti, həbsin qanuniliyi, Avropa Konvensiyasının 5-ci maddənin 1-ci bəndinə əsasən azadlıqdan qanuni məhrum etmə, azadlıqdan məhrum edilmiş şəxslər üçün təminatlar, qeyri-qanuni həbsə görə kompensasiya hüququ kimi məsələlər hakimlərin diqqətinə çatdırılıb, mövzu barəsində müxtəlif kazuslar müzakirə edilib.

Təlimin yekununda iştirakçılara müvafiq sertifikatlar təqdim olunub.

Tədris tədbirləri çərçivəsində, həmçinin məhkəmə aparatı işçiləri üçün Avropa İnsan Hüquqları Konvensiyası ilə bağlı ixtisasartırma kursu keçirilib.

30-a yaxın dinləyicilərin qatıldığı kursda "Mülkiyyət (əmlak) anlayışı: daxili qanunvericilik və Avropa Məhkəməsinin yanaşması", "Üç norma: Mülkiyyətdən məhrum edilmə, Mülkiyyətdən istifadəyə nəzarət, Mülkiyyətindən maneəsiz istifadə prinsipi", "Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi üzrə mülkiyyət hüququnun məhdudlaşdırılması və müdafiəsi" barədə mövzuları tədris olunub.



Ədliyyə Nazirliyinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində Ədliyyə Akademiyasında mediasiyanın tətbiqi və hüquq peşəsinin gücləndirilməsi barədə təlim keçirilib.

Təlimdə mediasiya və onun üstünlükləri barədə ümumi məlumat verilib, mübahisələrin alternativ həlli vasitələri, danışıqlar barədə ümumi məlumat, danışıqların mərhələləri və taktikalar, mediasiyanın mərhələləri, təsviri kimi məsələlər müzakirə edilib.

Ədliyyə Akademiyası tərəfindən, həmçinin Bərdə və Xaçmaz regional ədliyyə idarələri ilə birgə həmin qurumların yurisdiksiyasına aid rayonların bələdiyyə üzvləri və qulluqçuları üçün hüquqi maarifləndirmə tədbirləri keçirilib.

Tədbirlərdə "İnzibati aktın forması, inzibati akta dair ümumi tələblər, inzibati aktların icra edilmə qaydası", "Bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi, bələdiyyə torpaqlarının qiymətləndirilməsi" və "Bələdiyyə qulluqçularının etik davranış qaydaları, bələdiyyə qulluğuna qəbul prosesində şəffaflığın təmin edilməsi" mövzularında mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

### Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, insanların həyat və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükənin olması və ya mühüm zərərin vurulması hallarında sahibkarlıq sahəsində plandankənar (növbədənkənar) yoxlamaların təxirə salınmadan keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 2, maddə 87; 2015, N 8, maddə 910; 2016, N 8, maddə 1384; 2017, N 3, maddə 377, N 10, maddə 1778) ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.8-ci bəndə "olunmasını," sözündən sonra "avtomatlaşdırılmış və fasiləsiz rejimdə fəaliyyətini," sözləri əlavə edilsin;

1.2. 4.3-1-ci bəndə "əvvəl" sözündən sonra "(Qanunun 16.1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda yoxlamanın təxirə salınmadan keçirilməsi zərurəti əsaslandırıldıqda isə dərhal)" sözləri əlavə edilsin;

1.3. 4.3-2-ci bəndin birinci cümləsinə "əvvəl" sözündən, ikinci cümləsinə "ərzində" sözündən sonra "(Qanunun 16.1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda yoxlamanın təxirə salınmadan keçirilməsi zərurəti əsaslandırıldıqda isə dərhal)" sözləri əlavə edilsin;

1.4. 4.4-cü bəndə "müddətində" sözündən sonra "(Qanunun 16.1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda yoxlamanın təxirə salınmadan keçirilməsi zərurəti yoxlayıcı orqan tərəfindən əsaslandırıldıqda isə dərhal)" sözləri əlavə edilsin;

1.5. 5.1-ci bəndin birinci cümləsində "alınması," sözü "alınması barədə yoxlayıcı orqanlara qeydiyyat aparıldığı gün (Qanunun 16.1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda yoxlamanın təxirə salınmadan keçirilməsi zərurəti yoxlayıcı orqan tərəfindən əsaslandırıldıqda isə dərhal), eləcə də yoxlamanın" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını

nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. həmin Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 10 oktyabr 2018-ci il*
*N 301*

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 586, N 12, maddə 835; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 237, 240, 244, N 8, maddə 463; 2004, N 6, maddə 399; 2005, N 4, maddə 278; 2006, N 11, maddə 929; 2007, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddələr 1197, 1218; 2008, N 6, maddə 462, N 7, maddələr 602, 607; 2010, N 3, maddə 171, N 4, maddə 275, N 7, maddə 591; 2011, N 2, maddələr 70, 71, N 6, maddə 473, N 7, maddə 600, N 12, maddə 1107; 2012, N 5, maddə 406, N 11, maddələr 1056, 1063; 2013, N 8, maddə 889; 2015, N 10, maddə 1107, N 11, maddə 1271; 2016, N 6, maddələr 981, 1000; 2017, N 6, maddə 1058, N 12 (I kitab), maddə 2268; 2018, N 5, maddə 881, N 7 (I kitab), maddə 1422) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci və 2.2-ci maddələrə "çəkilməsi" sözündən sonra ", habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi" sözləri əlavə edilsin.

2. 6-cı maddədən "məhkumlara" sözü və "məhkəmənin bu hökmü dəyişən" sözləri çıxarılsın.

3. 7-ci maddəyə birinci halda "məhkumların" sözündən sonra "və barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən hüquqi şəxslərin" sözləri əlavə edilsin.

4. III fəslin və 15-ci maddənin adına "Cəzanı" sözündən sonra "və cinayət-hüquqi xarakterli digər tədbirləri" sözləri əlavə edilsin.

5. 15.1-ci maddədə "və əmlak müsadirəsi növündə cəzalar" sözləri "növündə cəza və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbiri" sözləri ilə əvəz edilsin.

6. Aşağıdakı məzmunda 15.1-1-ci və 15.1-2-ci maddələr əlavə edilsin:

"15.1-1. Hüquqi şəxslərə tətbiq edilən cərimə və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirlər hüquqi şəxsin olduğu yerin icra məmuru tərəfindən icra edilir.

15.1-2. Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbirlər

müvafiq icra hakimiyyəti orqanı tərəfindən icra edilir.".

7. XVIII fəslin adından ", əmlak müsadirəsi" sözləri çıxarılsın.

8. 160-165-ci maddələr ləğv edilsin.

9. Aşağıdakı məzmunda VIII bölmə əlavə edilsin:

**"VIII bölmə**
**Cinayət-hüquqi tədbirlərin icrası**

**XXII fəsil**
**Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin icrası**

Maddə 183. Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin icrası qaydası

183.1. Xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin tətbiq edilməsi barədə yekun qərar çıxarmış məhkəmə həmin qərar qanuni qüvvəyə mindikdən sonra onun surətini, qərarın icrası barədə göstərişi və əmlakın siyahısının surətini icra məmuruna göndərir və bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir.

183.2. Məhkəmənin yekun qərarı ilə xüsusi müsadirə edilməli əmlakın kimə mənsub olması haqqında mübahisə mülki məhkəmə icraatı qaydasında həll edilir.

Maddə 184. Xüsusi müsadirə cinayət-hüquqi tədbirinin icrası zamanı icra məmurunun vəzifələri

184.1. İcra məmuru məhkəmənin yekun qərarının surətini, qərarın icrası barədə göstərişi aldıqdan sonra dərhal əmlak siyahısında göstərilən əmlakın mövcudluğunu yoxlayır.

184.2. Müsadirə edilən əmlak plomblanır və ya möhürlənir və bu barədə tərtib edilmiş müvafiq siyahıda qeydlər edilir.

184.3. Müsadirə edilən əmlakın saxlanılması üçün icra məmuru tərəfindən tədbirlər həyata keçirilməlidir.

Maddə 185. Xüsusi müsadirə edilməli əmlakla əlaqədar digər şəxslərin vəzifələri

185.1. Xüsusi müsadirə edilməli əmlak hüquqi və ya fiziki şəxslərdə, yaxud dövlət qurumunda olarsa, onlar bu barədə məhkəməyə və ya müvafiq icra hakimiyyəti orqanına xəbər verməlidirlər.

185.2. Hüquqi və fiziki şəxslər, həmçinin dövlət qurumları onlara saxlanılmaq üçün verilən müsadirə edilən əmlakın qorunub-saxlanılmasını təmin etməlidirlər.

185.3. Müsadirə edilən əmlakın gizlədilməsinə, israf edilməsinə, özgəninkiləşdirilməsinə və ya dəyişdirilməsinə görə təqsirli şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Maddə 186. Xüsusi müsadirə edilmiş əmlakın müvafiq icra hakimiyyəti orqanına verilməsi

186.1. Barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən şəxsin müsadirə edilmiş əmlakı, bu əmlak barəsində irəli sürülən bütün tələblər qanunla müəyyən edilmiş qaydada təmin edildikdən sonra müvafiq icra hakimiyyəti orqanına verilir.

186.2. Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 187. Məhkəmənin yekun qərarının icrasından sonra aşkar edilmiş əmlakın müsadirəsi

Xüsusi müsadirə cinayət-hüquqi tədbiri icra edildikdən sonra barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən şəxsin xüsusi müsadirə olunmalı olan digər əmlakı aşkar edildiyi hallarda, icra məmuru yekun qərar çıxarmış məhkəməyə və ya yekun qərarın icra edildiyi yerin məhkəməsinə həmin əmlakın müsadirə edilməsi barədə təqdimat verir.

**XXIII fəsil**
**Hüquqi şəxslər barəsində tətbiq edilən cinayət-hüquqi tədbirlərin icrasının xüsusiyyətləri**

Maddə 188. Cərimə və xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirin icrası qaydası

188.1. Hüquqi şəxslər barəsində tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbir Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15-2-ci fəslinin xüsusiyyətləri nəzərə alınmaqla, bu Məcəllənin IV fəslinə uyğun olaraq icra edilir.

188.2. Hüquqi şəxslər barəsində tətbiq edilən xüsusi müsadirə növündə cinayət-hüquqi tədbir Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15-2-ci fəslinin xüsusiyyətləri nəzərə alınmaqla, bu Məcəllənin XXII fəslinə uyğun olaraq icra edilir.

Maddə 189. Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin icrası qaydası

189.1. Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş yekun qərarının surəti icra edilməsi üçün dərhal hüquqi şəxsin olduğu yerin icra məmuruna göndərilir.

189.2. Hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirdikdə, icra məmuru məhkəmə qərarının surətini 3 (üç) gün müddətində lisenziya (icazə) verən orqana göndərir. Həmin orqan qərarın surətini aldığı gündən 3 (üç) gün müddətində lisenziyanı (icazəni) ləğv edir və bu barədə icra məmuruna məlumat verir.

189.3. Hüquqi şəxs müəyyən fəaliyyət növünü lisenziya və ya icazə əsasında həyata keçirmədikdə, icra məmuru 3 (üç) gün müddətində məhkəmə qərarının surətini hüquqi şəxslərin dövlət reyestrinə müvafiq fəaliyyət növü ilə məşğul olma hüququndan məhrum etmə barədə qeydin 10 (on) gün ərzində daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına göndərir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq dəyişiklik dövlət qeydiyyatına alındıqdan sonra 2 (iki) gün müddətində icra məmuruna məlumat verilir.

Maddə 190. Hüquqi şəxsi ləğv etmə növündə cinayət-hüquqi tədbirinin icrası qaydası

190.1. Hüquqi şəxsi ləğv etmə haqqında məhkəmənin yekun qərarı ilə ləğvetmə komissiyasına (təsviyəçiyə) hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə olunur. Həmin qərar qanuni qüvvəyə mindikdən dərhal sonra onun surəti icra edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına, habelə cinayət-hüquqi tədbirin icrasına nəzarət edilməsi üçün icra məmuruna göndərir.

190.2. Hüquqi şəxsin ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

190.3. Hüquqi şəxsin ləğvi başa çatdıqdan sonra müvafiq icra hakimiyyəti orqanı 3 (üç) gün müddətində bu barədə yekun qərarı çıxarmış məhkəməyə və cinayət-hüquqi tədbirin icrasına nəzarəti həyata keçirən icra məmuruna məlumat verir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*
*N 1271-VQD*

## "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1271-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyi-

şiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1271-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 186.2-ci maddəsinə uyğun olaraq, xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi qaydasını üç ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 611; 2002, N 8, maddə 478; 2008, N 3, maddələr 168, 170, N 7, maddə 618; 2011, N 4, maddə 279; 2013, N 8, maddə 893; 2016, N 4, maddə 676; 2018, N 3, maddə 353, N 5, maddə 962, N 6, maddə 1203) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.2-ci bənddə "164.2 və 176.3-cü " sözləri "176.3 və 186.2-ci" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

"3.2-1. həmin Məcəllənin 15.1-2-ci maddəsində, 189.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 190.1-ci maddəsinin ikinci cümləsində və 190.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:

3.2-1.1. qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və onun rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri istisna olmaqla, digər qeyri-kommersiya qurumlarına münasibətdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

3.2-1.2. kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin müəyyən etdiyi bölgü üzrə bu orqana bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi;

3.2-1.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini

Qurumlarla İş üzrə İdarəsi;";

3.3. 3.17-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.18-ci bənd əlavə edilsin:

"3.18. həmin Məcəllənin 183.1-ci və 185.1-ci maddələrində, 186-cı maddəsinin adında və 186.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 oktyabr 2018-ci il*
*N 303*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 697, 700, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 11, maddələr 1968, 1978, N 12 (I kitab), maddə 2231; 2018, N 3, maddə 403, N 5, maddə 861, N 6, maddə 1154, N 7 (I kitab), maddə 1441) aşağıdakı dəyişikliklər edilsin:

1. 214-1-ci maddədə "219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi üçün, yaxud göstərilən cinayətlərin tö-

rədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) təmin edilməsi" sözləri "219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin, yaxud terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 219-2-ci maddə əlavə edilsin:

"Maddə 219-2. Dənizdə yerləşən stasionar platformaların təhlükəsizliyinə təhdid yaradan əməllər

219-2.1. Stasionar platformanın məhv edilməsinə və ya təhlükəsizliyinə təhdid yaradan dərəcədə zədələnməsinə səbəb ola bilən qurğu və ya maddəni stasionar platformada qəsdən qanunsuz olaraq yerləşdirmə, yaxud belə qurğu və ya maddənin stasionar platformada yerləşdirilməsi məqsədilə qəsdən qanunsuz olaraq digər hərəkətlər etmə -

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

219-2.2. Qəsdən qanunsuz olaraq stasionar platformanı məhv etmə və ya onun təhlükəsizliyinə təhdid yaradan dərəcədə zədələnməsinə səbəb olan zərər yetirmə -

yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

219-2.3. Stasionar platformanı zor tətbiq etməklə, zor tətbiq etmək hədəsi ilə və ya hər hansı digər hədə-qorxu yolu ilə qəsdən qanunsuz olaraq ələ keçirmə və ya nəzarətdə saxlama -

səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə "stasionar platforma" dedikdə təbii sərvətlərin kəşfiyyatı və ya işlənməsi, yaxud digər iqtisadi məqsədlər üçün dənizin dibində daimi olaraq bərkidilmiş süni ada, tikili və ya qurğu başa düşülür."

3. Aşağıdakı məzmunda 226.3-cü maddə əlavə edilsin:

"226.3. Radioaktiv materiallardan istifadə edərək öldürməklə, sağlamlığa ağır zərər vurmaqla və ya əmlaka əhəmiyyətli zərər vurmaqla hədələmə -

iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

4. Aşağıdakı məzmunda 227-1-ci maddə əlavə edilsin:

"Maddə 227-1. Radioaktiv materialları talamaqla hədələmə

Fiziki və ya hüquqi şəxsi, dövlət qurumlarını və ya beynəlxalq təşkilatları hər hansı hərəkətin edilməsinə məcbur etmək və ya hər hansı hərəkətin edilməsindən çəkindirmək məqsədilə radioaktiv materialları talamaqla hədələmə -

üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

5. Aşağıdakı məzmunda 270-1-ci maddə əlavə edilsin:

"Maddə 270-1. Aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər

270-1.1. Uçuş vaxtı hava gəmisində olan şəxsə zor tətbiq etmə, belə zorun tətbiqi hava gəmisinin təhlükəsizliyinə təhdid yaratdıqda -

min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

270-1.2. Uçuş vaxtı hava gəmisinə bilə-bilə yalan məlumat ötürmə, yaxud hava gəmisinin aeronaviqasiya avadanlığını qəsdən qanunsuz olaraq məhv etmə, zədələmə və ya fəaliyyətinə müdaxilə etmə, uçuş vaxtı hava gəmisinin təhlükəsizliyinə təhdid yaratdıqda -

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

270-1.3. Hava limanının avadanlığı və qurğularını, yaxud hava limanında yerləşən və istismarda olmayan hava gəmilərini qəsdən qanunsuz olaraq məhv etmə və ya onlara əhəmiyyətli zərər vurma, habelə hava limanı xidmətlərinin işini qəsdən qanunsuz olaraq pozma, hava limanının təhlükəsizliyinə təhdid yaranmasına səbəb olduqda -

üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

270-1.4. İstismarda olan hava gəmisini qəsdən məhv etmə, habelə hava gəmisinə qəsdən onun sıradan çıxmasına səbəb olan və ya uçuş təhlükəsizliyinə təhdid yaradan zərər yetirmə -

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

270-1.5. İstismarda olan hava gəmisinin məhv edilməsinə və ya onun uçuş təhlükəsizliyinə təhdid yaradacaq dərəcədə zədələnməsinə səbəb ola bilən qurğu və ya maddəni hava gəmisində qəsdən qanunsuz olaraq yerləşdirmə, yaxud belə qurğu və ya maddənin istismarda olan hava gəmisində yerləşdirilməsinə qəsdən qanunsuz olaraq şərait yaratma -

səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*
*N 1272-VQD*

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabine-

tinə məlumat versin.

3. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 610; 2001, N 10, maddə 646; 2002, N 5, maddələr 273, 279, N 7, maddə 413, N 8, maddə 478, N 9, maddə 563; 2003, N 8, maddə 434; 2004, N 1, maddə 19, N 5, maddə 345; 2005, N 1, maddə 18, N 4, maddə 299, N 9, maddə 799, N 12, maddə 1101; 2006, N 8, maddə 676, N 11, maddə 935; 2007, N 1, maddə 10, N 3, maddə 223, N 9, maddə 865, N 12, maddə 1247; 2008, N 1, maddələr 7, 10; 2009, N 7, maddələr 531, 534; 2010, N 7, maddə 615; 2011, N 11, maddə 999; 2013, N 5, maddə 509, N 6, maddə 649, N 8, maddə 900; 2014, N 4, maddə 348, N 6, maddə 625; 2015, N 12, maddələr 1450, 1461; 2016, N 4, maddələr 667, 669, N 10, maddə 1644; 2017, N 3, maddə 353, N 5, maddə 814, N 7, maddə 1321; 2018, N 3, maddə 444, N 4, maddə 680, N 6, maddə 1219; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 261 nömrəli və 14 sentyabr tarixli 269 nömrəli fərmanları) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. üçüncü abzasda "233-2, 233-3, 270" rəqəmləri "219-2, 226.3, 227-1, 233-2, 233-3, 270, 270-1" rəqəmləri ilə əvəz edilsin;

3.2. on ikinci abzasda "226" rəqəmləri "226.1, 226.2" rəqəmləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 17 oktyabr 2018-ci il*
N 304

## "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 2, maddə 58; 2010, N 3, maddə 178, N 4, maddə 276; 2011, N 12, maddə 1104; 2013, N 11, maddə 1274; 2014, N 2, maddə 81, N 10, maddə 1159, N 11, maddə 1361; 2015, N 11, maddə 1294; 2016, N 3, maddə 413; 2017, N 5, maddələr 696, 711, N 7, maddə 1295; 2017, N 11, maddə 1959; 2018, N 7 (I kitab), maddə 1407) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.4-cü maddədə "219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi üçün, yaxud göstərilən cinayətlərin törədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) təmin edilməsi" sözləri "219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olun-

masının və ya törədilməsinin, yaxud terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi" sözləri ilə əvəz edilsin.

2. 4.0-cı, 4.0.1 - 4.0.7-ci, 4.0.9-cu, 4.0.12-ci maddələr müvafiq olaraq 4.1-ci, 4.1.1 - 4.1.7-ci, 4.1.9-cu, 4.1.12-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 4.2-ci maddə əlavə edilsin:

"4.2. Cinayətkarlarla əlaqəli olan şəxslər monitorinq iştirakçılarında mühüm iştirak payına sahib və ya belə payın benefisiar mülkiyyətçisi ola, habelə monitorinq iştirakçılarında idarəetmə funksiyalarını yerinə yetirə, o cümlədən idarə heyətində, müşahidə şurasında və ya audit komitəsində vəzifə tuta bilməzlər.".

3. Aşağıdakı məzmunda 6.6-cı maddə əlavə edilsin:

"6.6. Nəzarət orqanları tərəfindən monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi riskləri ildə bir dəfə qiymətləndirilir və nəzarət yoxlamaları müəyyən edilmiş risklərə uyğun olaraq aparılır.".

4. Aşağıdakı məzmunda 7.4-1-ci maddə əlavə edilsin:

"7.4-1. Monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər bu Qanunun 7.3-cü maddəsində nəzərdə tutulan dövlətlərin (ərazilərin) vətəndaşları ilə, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin dövlətdə (ərazidə) olan şəxslərlə işgüzar münasibətlərə və əməliyyatlara, o cümlədən ilkin çıxış və ya təyinat məntəqəsinin həmin dövlətin (ərazinin) olduğu pul vəsaitlərinin istənilən şəxs tərəfindən qəbul olunması və köçürülməsi ilə bağlı əməliyyatlara xüsusi diqqət yetirməli, bu cür əməliyyatların açıq-aşkar iqtisadi və ya qanuni məqsədi olmadıqda onların təyinatını və mahiyyətini aydınlaşdırmalı və bununla əlaqədar yazılı təhlil hesabatı tərtib etməlidirlər. Tələb olunduğu təqdirdə, hesabat qanunla müəyyən edilmiş qaydada maliyyə monitorinqi orqanına, auditora, cinayət təqibini həyata keçirən orqanlara və ya nəzarət orqanlarına təqdim edilməlidir.".

5. 17.5-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Maliyyə monitorinqi orqanı aparılmış təhlil nəticəsində həyata keçirilən əməliyyatlarda digər cinayətlərin əlamətlərini müəyyən etdikdə, müvafiq məlumatları istintaq aidiyyəti üzrə cinayət təqibini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarına və ya prokurorluq orqanlarına göndərir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*
*N 1273-VQD*

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsini "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 914-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 586, N 12, maddə 835; 2001, N 7,

maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 237, 240, 244, N 8, maddə 463; 2004, N 6, maddə 399; 2005, N 4, maddə 278; 2006, N 11, maddə 929; 2007, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddələr 1197, 1218; 2008, N 6, maddə 462, N 7, maddələr 602, 607; 2010, N 3, maddə 171, N 4, maddə 275, N 7, maddə 591; 2011, N 2, maddələr 70, 71, N 6, maddə 473, N 7, maddə 600, N 12, maddə 1107; 2012, N 5, maddə 406, N 11, maddələr 1056, 1063; 2013, N 8, maddə 889; 2015, N 10, maddə 1107, N 11, maddə 1271; 2016, N 6, maddələr 981, 1000; 2017, N 6, maddə 1058, N 12 (I kitab), maddə 2268; 2018, N 5, maddə 881, N 7, maddə 1422) aşağıdakı dəyişikliklər edilsin:

1. 68.1-ci maddənin üçüncü cümləsinə "müvafiq" sözündən sonra "ərazi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən" sözləri əlavə edilsin.

2. 171-ci maddə üzrə:

2.1. maddənin adına "şəxslərin" sözündən sonra "cəzasının müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsi və ya" sözləri əlavə edilsin;

2.2. 171.1-ci maddəyə "cəzadan" sözündən əvvəl "cəzasının müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsi və ya" sözləri əlavə edilsin;

2.3. 171.2-ci maddədə "onun" sözündən sonra "cəzasının müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsi və ya" sözləri əlavə edilsin və həmin maddədə "altı ay" sözləri "bir il" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*
*N 1281-VQD*

## "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 914-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 7, maddə 641; 2014, N 4, maddə 347, N 7, maddə 767; 2016, N 6, maddə 987) aşağıdakı dəyişikliklər edilsin:

1. 48.2.2-ci maddəyə "başa çatdıqda" sözlərindən sonra "və həbsdə saxlamanın son müddəti Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 159.8-159.10-cu maddələrində nəzərdə tutulmuş qaydada uzadılmadıqda" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 48.2.2-1-ci maddə əlavə edilsin:

"48.2.2-1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 159.8-159.10-cu maddələrində nəzərdə tutulmuş qaydada uzadılmış həbsdə saxlanılma müddəti başa çatdıqda;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*
*N 1282-VQD*

## Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Dövlət orqanlarında (qurumlarında) qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması və rəqəmsal idarəçiliyin tətbiq edilməsi dövlət siyasətinin prioritetlərindən biridir və bu sahədə mühüm nailiyyətlər əldə edilmişdir. Bununla belə, həyata keçirilən tədbirlərin daha yüksək səviyyədə davam etdirilməsi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zəruridir.

Dövlət orqanlarında (qurumlarında) rəqəmsal idarəçiliyin inkişafı, daxili idarəetmə proseslərinin (kargüzarlığın aparılması, sənədlərin icrasına nəzarət, arxiv, kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) optimallaşdırılması və elektronlaşdırılması, bu sahədə çevik və effektiv idarəetmənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında kargüzarlığın aparılması işinin səmərəli təşkili üçün "Elektron sənəd dövriyyəsi sistemi" yaradılsın.

2. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsi əsasında yaradılan "Elektron sənəd dövriyyəsi sistemi"nin sahibi funksiyasını Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, maddi-texniki təminatını, işlək vəziyyətdə olmasını (operator funksiyasını) və təhlükəsizliyinin təmin edilməsini Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir.

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

3.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında 2019-cu il aprelin 1-dək "Elektron sənəd dövriyyəsi sistemi"nin proqram təminatının hazırlanmasını və tətbiqini təmin etsin;

3.2. idarələrarası elektron sənəd dövriyyəsi sisteminin səmərəli fəaliyyəti üçün zəruri tədbirlər görülməsini təmin etsin;

3.3. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"də dəyişikliklər edilməsinə dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"da dəyişikliklər edilməsinə dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.5. dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması sahəsində qabaqcıl beynəlxalq təcrübənin Azərbaycanda tətbiqinin təmin edilməsi və müvafiq normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi:

4.1. bu Fərmanın 3.1-ci bəndindən irəli gələn zəruri təd-

birlərin görülməsini təmin etsin;

4.2. "Elektron sənəd dövriyyəsi sistemi"nin proqram təminatına texniki dəstəyi və onun mütəmadi təkmilləşdirilməsinin həyata keçirilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi 2020-ci il dekabrın 31-dək:

5.1. Elektron Hökumət İnformasiya Sistemi infrastrukturunda mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi altsisteminin yaradılmasını və təhlükəsizlik tələblərinə (Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə razılaşdırmaqla) cavab verməklə, həmin altsistemin idarələrarası elektron sənəd dövriyyəsi sisteminə inteqrasiyasını təmin etsin;

5.2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin Elektron Hökumət İnformasiya Sistemi üzərindən mərkəzləşdirilmiş qaydada elektronlaşdırılmasını və tətbiqini təmin etsin.

6. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər 2020-ci il dekabrın 31-dək Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təklifləri əsasında elektron sənəd dövriyyəsi altsisteminə qoşulmanı, elektron sənəd dövriyyəsi sistemi mövcud olduğu təqdirdə isə inteqrasiyanı təmin etsinlər.

7. Bu Fərmanın 6-cı hissəsində nəzərdə tutulan orqanlardan (qurumlardan) başqa, idarələrarası elektron sənəd dövriyyəsi sisteminin digər iştirakçılarına tövsiyə edilsin ki, daxili idarəetmə sistemlərinin elektronlaşdırılmasını, bu sistemlərin Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Data Mərkəzində saxlanılmasını və daxili sənəd dövriyyəsi sistemlərinin idarələrarası elektron sənəd dövriyyəsi sisteminə inteqrasiyasını təmin etsinlər.

8. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

8.1. bu Fərmanın 5-ci və 6-cı hissələrinə əsasən yaradılan daxili idarəetmə proseslərinin elektron sistemlərinin istifadəçiləri üçün elektron imza və Data Mərkəzindən istifadə ilə bağlı tariflərin, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla təsdiq olunmasını təmin etsin;

8.2. bu Fərmanın 5-ci və 6-cı hissələrində göstərilən daxili idarəetmə proseslərinin elektron sistemlərinin Data Mərkəzində saxlanılmasının təşkili üçün tədbirlər görsün.

9. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti bu Fərmanda göstərilən elektron sistemlərin mühafizə olunan rabitə kanallarına çıxışını təmin etsin.

10. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

10.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

10.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

10.4. bu Fərmanda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təmin etsin;

10.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

12. Bu Fərman dövlət sirri təşkil edən məlumatların dövriyyəsinə şamil olunmur.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 27 oktyabr 2018-ci il*

*N 314*